

«Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi»nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı

2



Qubadlıda xəstəxana binasının təməlqoyma mərasimi keçirilib

2



Prezident İlham Əliyev Kəlbəcərdə yeni hərbi hospital açıb

3


# TİBB qəzeti

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

№ 09-10 (769) 31 may 2023-cü il | Qəzet 1991-ci ildən nəşr olunur | www.tibbqazeti.az


## Azərbaycan ilə İsrail arasında səhiyyə və tibb elmi sahələrində Əməkdaşlıq Planı imzalanıb



3

## Azərbaycan Prezidenti İlham Əliyev Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlini qoyub



2

## Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası




6

## «Təbabətin aktual problemləri - 2023»

*Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi praktik konqres keçirilib*




5

## Tibbi tullantıların idarə edilməsi sahəsində fəaliyyət əlaqələndiriləcək




10

*Aforizm*

*Sağlamlıqdan həmişə şikayət etsən, ona heç bir sağlamlıq dözməz.*

*Viktor Konyaxin*

## Qubadlıda xəstəxana binasının təməlqoyma mərasimi keçirilib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qubadlı şəhərində 91 çarpayılıq Mərkəzi Xəstəxana binasının təməlinin qoyulması mərasimində iştirak edib.**

AZƏRTAC bildirir ki, dövlət başçısına xəstəxana binasının layihəsi barədə məlumat verilib.

Bildirilib ki, 4,5 hektardan çox ərazidə inşa ediləcək bu tibb müəssisəsi inzibati binadan, stasionar və ambulator xidmət hissələrindən ibarət olacaq. Stasionar xidmət hissəsində qəbul, terapiya, cərrahiyyə, pediatriya, doğum, ginekologiya, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ şöbələri fəaliyyət göstərəcək. Xəstəxananın ambulator xidmət hissəsi isə konsultativ poliklinika, uşaq poliklinikası, şüa-diaqnostika, funksional diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələrindən, klinik diaqnostika laboratoriyasından ibarət olacaq.

Müalicə ocağı ən müasir tələblərə cavab verən tibbi avadanlıq, o cümlədən kompüter tomoqrafiya, maqnit-rezonans tomoqrafiya, angioqrafiya və digər cihazlarla təchiz ediləcək.

Prezident İlham Əliyev xəstəxana binasının təməlini qoyub.

## Azərbaycan və İsrail prezidentlərinin geniş tərkibdə görüşü keçirilib

**İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun Azərbaycan Respublikasına səfəri çərçivəsində iki dövlət başçısının geniş tərkibdə görüşü keçirilib.**

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Azərbaycan Prezidenti **İlham Əliyev** qonaqları salamlayıb: «Azərbaycana xoş gəlmisiniz. Sizi ölkəmizdə qəbul etmək imkanına malik olduğumuza görə çox şadıq. Əminəm ki, səfər ölkələrimiz arasında dostluq münasibətlərinin inkişafına böyük təkan verəcək. Elə indicə cənab Prezidentlə ikitərəfli gündəliyimiz və regional məsələlərlə bağlı çox yaxşı müzakirə apardıq. Əminəm ki, nümayəndə heyətlərinin iştirakı ilə görüşdə, bu gün və sabah davam edəcək səfəriniz çərçivəsində təmaslarda geniş diapazonlu məsələlər müzakirə olunacaq. Biz səfərdən sonra müsbət dinamikanı görəcəyik. Çünki mən tamamilə əminəm ki, böyük potensial mövcuddur. Baxmayaraq ki, biz ayrı-ayrı istiqamətlər, ticarət, enerji, təhlükəsizlik sahələri üzrə artıq çoxlu işlər görmüşük, lakin hələ çoxlu işlər görülməlidir. Əlbəttə ki, biz Sizin Azərbaycana səfərinizi tarixi səfər hesab edirik. Dəvətimi qəbul etdiyiniz üçün təşəkkür edirəm.



Ümid edirəm ki, ölkəmizdə yaxşı vaxt keçirəcəksiniz. Sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzulayıram».

İsrail Prezidenti **İsxak Hersoq** təşəkkürünü bildirərək deyib: «Burada olmaqdan şərəf və məmnunluq hissi duyuram. Biz buraya açıq ürəklə, millətlərimiz arasında böyük dostluqla gəlirik. Ən əsası odur ki, Siz mərhum atanızı yetişdirən millətsiniz, sonra isə Siz onun yolunu davam etdirərək elə bir heyrətamiz ölkə yaratmısınız ki, bura bir çox məsələlərin mərkəzinə çevrilib.

İsraillə Azərbaycan arasında tərəfdaşlıq Sizin qeyd etdiyiniz və bizim müzakirə etdiyimiz bir çox sahələrin də təməl nöqtəsidir. Düşünürəm ki, bu, bir çox səviyyələrdə xalqlarımıza mesaj göndərir. İlk növbədə, hesab edirəm ki, bu, elə bir mesaj göndərir ki, yəhudilər və müsəlmanlar birlikdə sülhə doğru addımlasalar, birgə açıq dialoq aparsalar, birlikdə dünyanın xeyrinə çalışsalar, birlikdə möhtəşəm işlər görə bilərlər. İkincisi, bu, strateji münasibətdir, çünki biz sülh, rifah və inkişaf istiqamətlərində bütün regiona öz təsirimizi göstəririk. Buna görə çox sağ olun. Əlbəttə ki, cənab Prezident, mən qarşılıq göstərərək Sizi İsraildə qəbul etməyi səbirsizliklə gözləyirəm».

## «Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** «Azərbaycan Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 20 dekabr tarixli 418 nömrəli Fərmanında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3.3-cü bənddə «və onun 3 (üç) müavini həyata keçirir;» sözləri «həyata keçirir.» sözləri ilə əvəz edilsin və həmin bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

«İcraçı direktorun Müşahidə Şurası tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən 3 (üç) müavini vardır;»;

1.2. 3.5-ci bəndə «ayırmalar,» sözündən sonra «icbari tibbi sığorta fondundan ayırmalar,» sözləri əlavə edilsin;

1.3. 6.5.7-ci yarımbənd ləğv edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin təklifləri əsasında dövlət səhiyyə sisteminə daxil olan tibb müəssisələrinə tibb işçilərinin işə qəbulu qaydasını iki ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 1 may 2023-cü il*

## Zəngilan Xəstəxanası ən müasir tibbi avadanlıqla təchiz olunacaq

*Prezident İlham Əliyev Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlini qoyub*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zəngilan rayonuna səfəri zamanı burada tikiləcək Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak edib.**

AZƏRTAC-in yaydığı xəbərə görə, dövlət başçısına xəstəxana binasının layihəsi barədə məlumat verilib.

Bildirilib ki, baş plana əsasən, yeni xəstəxananın ümumi ərazisi 4,5 hektardır. 91 çarpayılıq xəstəxananın ərazisində Yoluxucu xəstəliklər şöbəsi və bir sıra texniki təyinatlı binalar olacaq. Ən müasir tibbi avadanlıqla təchiz ediləcək xəstəxanada müayinə və müalicə



işinin aparılması üçün hər cür şərait yaradılacaq. Beləliklə, doğma yurdlarına qayıdacaq rayon sakinləri bu səhiyyə ocağının istifadəyə verilməsi ilə hərtərəfli tibbi xidmətlə əhatə olunacaqlar.

Prezident İlham Əliyev Zəngilan Rayon Mərkəzi Xəstəxanasının təməlini qoyub.

## «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi»nin təsdiq edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** «Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin Nizamnaməsi» təsdiq edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi:

3.1. strukturunu, əməyin ödənişi fondunu, işçilərinin say həddini və əməkhaqlarının (vəzifə maaşının, vəzifə maaşına əlavələrin, mükafatların və digər ödənişlərin) məbləğini bir ay müddətində təsdiq etsin;

3.2. bu Fərmandan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 1 may 2023-cü il*

## Azərbaycan ilə İsrail arasında səhiyyə və tibb elmi sahələrində Əməkdaşlıq Planı imzalanıb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun iştirakı ilə «Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı» imzalanıb.

AZƏRTAC xəbər verir ki, sənədi Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev və İsrail Dövlətinin daxili işlər və səhiyyə naziri Moşe Arbel imzalayıblar.

## Prezident İlham Əliyev Kəlbəcərdə yeni hərbi hospital açıb

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Kəlbəcərdə hərbi hospitalın açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verib.

Sonra Azərbaycan Prezidenti hərbi hospitalda yaradılan şəraitlə tanış olub.

Məlumat verilib ki, 3,6 hektar ərazidə salınan Kəlbəcər Hərbi Hospitalı sülh dövrü üçün 180 çarpayılıqdır. Döyüş vəziyyəti zamanı çarpayı sayını 300-dək artırmaq mümkündür. Müasir, tam rəqəmsal, süni intellektə əsaslanan tibbi cihaz və avadanlıqlarla təchiz olunmuş hərbi hospitalda poliklinika, terapiya, cərrahiyyə, anesteziologiya-reanimasiya bölmələrindən ibarət birinci müalicə korpusu, yoluxucu xəstəliklər və dəri xəstəlikləri bölmələrindən ibarət ikinci müalicə korpusu, qərargah binası, eləcə də daimi tibbi oksigen təminatı üçün stansiya, camaşırxana-qazanxana, nəzarət-buraxılış məntəqəsi və yeməkxana tikilib.



Poliklinika bölməsində oftalmoloq, otorinolarinqoloq, kardioloq, stomatoloq, nevroloq, psixiatr, fizioterapevt və digər ixtisaslar üzrə kabinetlər açılıb. Təcili yardım otağında ilkin yardım göstərmək üçün hər cür şərait mövcuddur.

Hospitalda iki əməliyyat otağı fəaliyyət göstərir. Müalicə korpuslarında hərbi qulluqçulara yüksək səviyyədə tibbi xidmət göstərilməsi, o cümlədən onların müayinə və müalicəsi üçün bütün şərait yaradılıb. Laboratoriya bölməsi ən yüksək standartlara cavab verir. Burada müasir laborator müayinə üsulları tətbiq edilməklə klinik, biokimyəvi və mikrobioloji analizlərin aparılması mümkündür.

Kəlbəcər Hərbi Hospitalı həmçinin bioloji təmizləmə qurğusu, ehtiyat generator, cərrahi əməliyyatların fasiləsizliyi üçün UPS, mərkəzləşdirilmiş su, istilik və digər kommunikasiya sistemləri ilə tam təchiz olunub.

Bundan əlavə, hərbi hospitalın avtomobil parkında reanimobillər, yolsuzluq şəraitində təxliyə üçün ambulanslar, çöl şəraitində hərbi qulluqçulara tibbi xidmət göstərilməsi üçün avtomobillər var.

Hərbi hospitalın ətrafındakı ərazidə yaşıllaşdırma və abadlıq işləri də görülüb.

## «Bakı Ürək Günləri» VIII Beynəlxalq Konqresinin iştirakçılarına

**Hörmətli Konqres iştirakçıları!**

Sizi – Azərbaycan kardioloqlarını, kardiocərrahlarını və müxtəlif ölkələrdən paytaxtımıza gəlmiş alimləri «Bakı Ürək Günləri» VIII Beynəlxalq Konqresinin öz işinə başlaması münasibətilə səmimi-qəlbdən salamlayır, gələcək fəaliyyətinizdə hər birinizə müvəffəqiyyətlər arzulayıram.

Builki Konqresin xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunması rəmzi məna daşıyır. Ulu Öndər ölkəmizdə səhiyyə sisteminin təkmilləşdirilməsi və dünya standartları səviyyəsində qurulması işini daim diqqətdə saxlamışdır.

Azərbaycan səhiyyəsinin ötən dövr ərzində keçdiyi yol təbabətin sürətlə irəliləyən sahələrindən biri kimi kardiologiya elminin mühüm nailiyyətlərinin tətbiqinə, ürək xəstəliklərinin müasir terapevtik və cərrahi üsullarla müalicəsinin təmin olunmasına əlverişli şərait yaratmışdır. Nüfuzlu kardioloji mərkəzlərdə gerçəkləşdirilən ən çətin əməliyyatların hazırda yeni nəsil həkimlərimizin fəaliyyəti sayəsində uğurla keçirilməsi qürur hissi doğurur.

Ənənəvi «Bakı Ürək Günləri» Beynəlxalq Konqresinin kardiologiya və ürək-damar cərrahiyyəsinin inkişafında özünəməxsus rolu vardır. Bu sahə ilə bağlı geniş fikir mübadiləsinin aparılacağı tədbirinizdə dünyanın mötəbər tibb qurumlarını təmsil edən görkəmli kardioloq alim və cərrahların iştirakı Konqresinizin qazandığı yüksək etimadın göstəricisidir. Beynəlxalq təcrübədən qarşılıqlı surətdə lazımınca faydalanmaqla kardiologiyanın aktual məsələlərinin həllinə yönəlmiş birgə səylərinizin səmərəli olacağına inanıram.

Ümidvaram ki, böyük elmi və elmi-praktiki əhəmiyyətə malik bu Konqres azərbaycanlı mütəxəssislərin öz xarici həmkarları ilə əlaqələrini daha da möhkəmləndirəcək, yüksəkixtisaslı kadr hazırlığına, kardiologiyanın, ürək-damar cərrahiyyəsinin və ümumilikdə tibb elminin inkişafına töhfələr verəcəkdir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 20 may 2023-cü il*

## Koronavirusla mübarizə aparan tibb işçilərinin əməkhaqlarına əlavənin müddəti uzadıldı

Nazirlər Kabineti «Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Qərar qəbul edib.



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun imzaladığı sənədə əsasən, «Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Nazirlər Kabinetinin adıçəkilən Qərarının 2-ci hissəsində «mayın 1-dək» sözləri «iyulun 1-dək» sözləri ilə əvəz edilib. Beləliklə, bu qrupdan olan tibb işçilərinin əməkhaqlarına əlavənin müddəti həmin tarixədək uzadılıb.

Baş nazirin imzaladığı daha bir sənəd «Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyində yaradılmış xüsusi ambulator tibb məntəqələrində yeni növ koronavirus (COVID-19) infeksiyasına yoluxmuş xəstələrə ambulator-poliklinik yardım göstərən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyul tarixli 262 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarıdır.

Dövlət başçısının həmin Sərəncamına istinad olunan Qərara əsasən, COVID-19 infeksiyasına yoluxmuş xəstələrə Bakı şəhər Baş Səhiyyə İdarəsinin tabeliyindəki ambulator tibb məntəqələrində ambulator-poliklinik yardım göstərən tibb işçilərinin də əməkhaqlarına müddətli əlavənin müddəti iyul ayının 1-dək uzadılıb.

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş «Hərbi-həkim ekspertizası haqqında Əsasnamə»də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin QƏRARI

**Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş «Hərbi-həkim ekspertizası haqqında Əsasnamə»də aşağıdakı dəyişikliklər edilsin:

**1.** Aşağıdakı məzmunda 1.14-cü bənd əlavə edilsin:

«1.14. «Narkoloji xidmət və nəzarət haqqında» Azərbaycan Respublikası Qanununun 24.4-cü maddəsinə uyğun olaraq müddətli həqiqi hərbi xidmətə çağırılan şəxslər çağırış dövründə qeydiyyatda olduqları dövlət tibb müəssisələri tərəfindən, bağlaşma əsasında həqiqi hərbi xidmətə könüllü daxil olanlar bağlaşma imzalanmazdan əvvəl bağlaşma bağladıqları dövlət orqanlarının tibb müəssisələri tərəfindən, birbaşa kadr zabit heyətinə könüllü daxil olanlar həqiqi hərbi xidmətə daxil olmaları barədə əmr imzalanmazdan əvvəl kadr zabit heyətinə daxil olduqları dövlət orqanlarının tibb müəssisələri tərəfindən, həqiqi hərbi xidmət hərbi qulluqçuları isə (müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları istisna olmaqla) ildə bir dəfədən az olmayaraq xidmət keçdikləri dövlət orqanlarının tibb müəssisələri tərəfindən icbari narkoloji müayinədən keçirilirlər.».

**2.** 2.8-ci bənd üzrə:

2.1. birinci abzasdan «, eləcə də icbari narkoloji müayinəyə» sözləri çıxarılsın;

2.2. ikinci abzasdan «, eləcə də icbari narkoloji müayinəsi» sözləri çıxarılsın.

3. 2.10-cu bəndin ikinci abzasından «, eləcə də icbari narkoloji müayinədən» sözləri çıxarılsın.

4. 3.1-ci bəndin dördüncü abzasından «, eləcə də icbari narkoloji» sözləri çıxarılsın.

5. 6.1-ci bəndin üçüncü abzasından «, eləcə də icbari narkoloji müayinəyə» sözləri çıxarılsın.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**
*Bakı şəhəri, 28 aprel 2023-cü il*

# Ailə Məcəlləsinə tibbi müayinələrlə bağlı dəyişiklik edildi

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Milli Məclisin qəbul etdiyi «Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında» Qanunu imzalayıb.**

Sənəddə Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndinə istinad edilərək, Ailə Məcəlləsində bəzi dəyişikliklər edilib.

O cümlədən, 9.1-ci maddədə «13.3-cü maddəsinə uyğun olaraq, tibbi müayinədən keçdiklərini təsdiq edən arayış əlavə edilməklə» sözləri «11-ci maddəsinin tələbləri nəzərə alınmaqla» sözləri ilə, 11.1-ci maddədə «13.3-cü» sözləri «13-cü» sözləri ilə əvəz edilib.

12.0.3-1-ci maddə aşağıdakı redaksiyada verilib:

«12.0.3-1. bu Məcəllənin 13-cü maddəsində nəzərdə tutulmuş tibbi müayinədən keçməyən şəxslər;».

13.3-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilib: «Həmin arayış elektron formada tərtib olunaraq, tibb müəssisəsinin rəhbəri tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənir və dərhal elektron informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma), müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən isə elektron informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.»;

13.4-cü maddənin birinci cümləsi aşağıdakı redaksiyada verilib: «Nikaha daxil olmaq barədə ərizə təqdim edilən zaman nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinədən keçdiklərini təsdiq edən arayışı elektron informasiya sistemi vasitəsilə əldə etmək mümkün olmadıqda, həmin arayış nikaha daxil olmaq barədə ərizəyə kağız formada əlavə olunur.».

23.3-cü maddədə «qüvvəyə mindiyi gündən 3 gün müddətində məhkəmə bu qətnamədən çıxarışı müvafiq icra hakimiyyəti orqanına göndərməyə borcludur» sözləri «qüvvəyə mindikdən sonra həmin qətnamədən çıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək «Elektron məhkəmə» informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür» sözləri ilə əvəz edilib.

Məcəllədə həmçinin bir sıra hallarda «3 gün müddətində» sözləri «dərhal» sözü ilə əvəz olunub.

Azərbaycan Respublikası Prezidenti həmçinin «Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 864-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə» 2000-ci il 6 mart tarixli 297 nömrəli, «Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişikliklər edilməsi haqqında» Azərbaycan Respublikasının 2014-cü il 17 oktyabr tarixli 1080-IVQD nömrəli Qanununun tətbiqi barədə» 2014-cü il 15 dekabr tarixli 389 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman da imzalayıb.

Sənədlə müəyyən edilir ki, «Azərbaycan Respublikasının Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında» Azərbaycan Respublikasının 2023-cü il 2 may tarixli 864-VIQD nömrəli Qanununda müxtəlif hallarda «orqan (qurum)» dedikdə hansı qurumlar nəzərdə tutulur.

O cümlədən Məcəllənin 13.3-cü maddəsinin ikinci cümləsində (birinci və ikinci hallarda) «orqan (qurum)» dedikdə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin nəzərdə tutulması müəyyən edilib.

# Milli Məclisin yaz sessiyasında səhiyyə ilə bağlı qanun layihələrinə baxılıb

Milli Məclisin yaz sessiyasındakı növbəti plenar iclasında Azərbaycan Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olmuş, mahiyyətcə bir-birinə bağlı olan, birinci oxunuşda olan qanun layihələrindən biri – «Sanitariya-epidemioloji salamatlıq haqqında», «Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında», «Yanğın təhlükəsizliyi haqqında», «Milli arxiv fondu haqqında», «Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında» və «Hərbi vəzifə və hərbi xidmət haqqında» qanunlarda (birinci oxunuş) dəyişikliklər edilməsi barədə qanun layihəsi ilə bağlı Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov məlumat verib.

AZƏRTAC bildirir ki, Rəşad Mahmudov təklif olunan dəyişikliklərin uyğunlaşdırma xarakteri daşıdığını söyləyib.

Bu layihə barədə Musa Quliyev Əmək və sosial siyasət komitəsinin, Nizami Səfərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Əziz Ələkbərov Mədəniyyət komitəsinin, Tamam Cəfərova Ailə, qadın və uşaq məsələləri komitəsinin rəylərini səsləndiriblər.

Sonra təqdim olunan qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Milli Məclisin yaz sessiyasının növbəti iclasında həmin qanun layihəsinə ikinci oxunuşda baxılıb.

Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudovun təqdimatından, Əmək və sosial siyasət komitəsinin, Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Mədəniyyət komitəsinin, Ailə, qadın və uşaq məsələləri komitəsinin rəyləri səsləndirildikdən sonra qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Parlamentin sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti məsələlərində təklif olunan dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır və «Normativ-hüquqi aktlar haqqında» Konstitusiya Qanununun tələbinə əsasən, onlar bir oxunuşda qəbul ediləcək.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Əhalinin sağlamlığının qorunması haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verərək bildirib ki, Qanunun 12-ci maddəsinin səkkizinci hissəsində «orqanları» sözünün «orqanının müəyyən etdiyi orqan (qurum)» sözləri ilə əvəz edilməsi təklif olunur. Dəyişiklik dəqiqləşdirmə xarakteri daşıyır.

Deputat Tahir Kərimli bəzi mülahizələrini səsləndirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov «Özəl tibb fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini diqqətə çatdırıb. O bildirib ki, qanunun 13-cü maddəsinin dördüncü hissəsinə «müəssisələri» sözündən sonra «və özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər» sözlərinin əlavə edilməsi nəzərdə tutulur. Qeyd olunub ki, sənəd «Nağdsız hesablaşmalar haqqında» Qanunun icrası ilə əlaqədar hazırlanıb və uyğunlaşdırma məqsədi daşıyır.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin 2023-cü il yaz sessiyasının sonuncu plenar iclası başa çatıb.

# «Reproduktiv sağlamlıq haqqında» qanun layihəsində ailə planlaşdırılması əlavə mexanizm kimi təsbit ediləcək

**«Reproduktiv sağlamlıq haqqında» qanun layihəsinin qəbul olunması Milli Məclisin qarşısında duran mühüm məsələlərdən biridir.**

AZƏRTAC xəbər verir ki, bunu Milli Məclisin Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev «Nikahın xitamı ilə bağlı ailə qanunvericiliyinin tətbiqi sahəsində mövcud vəziyyət» mövzusunda keçirilən konfransda çıxışı zamanı deyib.

Şöbə müdiri qeyd edib ki, BMT-nin Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi üzrə Komitəsinin Azərbaycanla bağlı tövsiyələrində də bu məsələ öz əksini tapıb. Məsələn, nikaha xitam verilmənin əsas səbəblərindən biri də sonsuzluqdur. Lakin müasir dövrdə hər bir insanı valideyn edə bilən tibbi üsul tətbiq olunur. «Reproduktiv sağlamlıq haqqında» qanun layihəsi də məhz bu tələblər çərçivəsində hazırlanıb.

Bu məsələ ilə bağlı daha ciddi problemlərin mövcud olduğunu söyləyən Adil Vəliyev bildirib ki, bütün bunlar qanun layihəsinin qəbulu ilə problemin hüquqi tənzimlənməsini vacib edir. «Reproduktiv sağlamlıq haqqında» qanun layihəsinin əsas xüsusiyyəti də bu problemin həllində ailə planlaşdırılmasının əlavə mexanizm kimi təsbit olunmasıdır.

# Milli Məclisin Səhiyyə komitəsi qanun layihələrini müzakirə edib

**Milli Məclisin Səhiyyə komitəsinin iclasında komitə sədri Əhliman Əmiraslanov iclasın gündəliyi barədə məlumat verərək bildirib ki, gündəliyə iki məsələ – «Əhalinin sağlamlığının qorunması haqqında» Qanunda dəyişiklik edilməsi barədə və «Özəl tibb fəaliyyəti haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihələrinin müzakirəsi daxil edilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirildiyinə görə, qanun layihələri barədə məlumatı təqdim edən Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin əməkdaşı Seymur Əşrəfli söyləyib ki, «Əhalinin sağlamlığının qorunması haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsində dəqiqləşdirmə xarakterli dəyişiklik təklif olunur. Belə ki, qüvvədə olan qanunun vətəndaşların tibbi-sosial yardım almaq hüququnu təsbit edən müvafiq maddəsində «Müvafiq icra hakimiyyəti orqanları» anlayışının «Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)» anlayışı ilə əvəz olunması təklif edilib.

«Özəl tibb fəaliyyəti haqqında» Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin «Nağdsız hesablaşmalar haqqında» Qanunun icrası məqsədilə hazırlandığını deyən məruzəçi bildirib ki, sənəddə nağdsız hesablaşmaların əhatə dairəsi genişləndirilərək, bu sıraya tibb müəssisələri ilə yanaşı, özəl tibbi praktika ilə məşğul olan fiziki şəxslər tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan ödənişlərin də əlavə edilməsi təklif olunub.

Sənədlər barədə fikrini bildirən komitə sədri Əhliman Əmiraslanov vurğulayıb ki, qanun layihələrində təklif olunan dəyişikliklər qüvvədə olan normativ hüquqi aktlara uyğunlaşdırma xarakteri daşıyır.

Deputatlar hər iki qanun layihəsini müzakirə olunmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə ediblər.

Sonra iclasda cari məsələlərin müzakirəsi aparılıb.

Komitə sədri Əhliman Əmiraslanov komitədə nəzərdə tutulan dinləmələrin keçirilməsi haqqında danışıb. Komitə sədrinin müavini Rəşad Mahmudov, deputatlar Soltan Məmmədov, Sədaqət Vəliyeva, İlham Məmmədov çıxış edərək, bu barədə qeyd və təkliflərini diqqətə çatdırıblar.

## Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini yad ediblər

**Mayın 10-u – müasir müstəqil Azərbaycanın memarı və qurucusu, görkəmli dövlət xadimi, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Səhiyyə Nazirliyinin rəhbərliyi və kollektivi Fəxri xiyabana gələrək Ulu Öndərin xatirəsini ehtiramla yad edib, məzarı önünə gül dəstələri düzüblər.**

Görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın xatirəsi də ehtiramla yad edilib, məzarı önünə tər çiçəklər düzülüb.

Görkəmli dövlət və ictimai xadim Əziz Əliyevin, istedadlı həkim Tamerlan Əliyevin məzarları üzərinə də tər çiçəklər qoyulub.

Ümummilli Lider Heydər Əliyev Azərbaycan səhiyyəsinə, bu sahənin işçilərinə, o cümlədən həkimlərə həmişə xüsusi diqqət və qayğı göstərirdi. Ölkəmizdə səhiyyənin inkişafı və tibbi kadrlar hazırlanması məhz Ulu Öndərin adı ilə bağlıdır.



# «Təbabətin aktual problemləri - 2023»

## *Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş beynəlxalq elmi praktik konqres keçirilib*

**«Heydər Əliyev ili» çərçivəsində Azərbaycan Tibb Universitetində (ATU) Səhiyyə Nazirliyinin təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş «Təbabətin aktual problemləri - 2023» mövzusunda beynəlxalq elmi praktik konqres keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən xəbərə görə, əvvəlcə tədbir iştirakçıları Ulu Öndərin universitetin foyesindəki büstünün önünə gül dəstələri qoyublar, xatirəsini ehtiramla yad ediblər.

Toplantıda Dövlət Himni səsləndirildikdən sonra Ümummilli Lider Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canını qurban vermiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

AZƏRTAC-ın verdiyi xəbərə görə, dünyanın müxtəlif ölkələrindən mütəxəssis və alimlərin iştirak etdiyi konqresin açılış mərasimində **səhiyyə naziri Teymur Musayev** çıxış edərək, Heydər Əliyev kimi bir dühanın bir əsrlik yubileyinin bütün ölkəmiz və xalqımız üçün çox əlamətdar olduğunu bildirib. Qeyd edib ki, Azərbaycanın bugünkü inkişafının, böyük Zəfərimizi şərtləndirən qüdrətinin təməlində məhz Ulu Öndərin tərəqqimizi təmin edən siyasi kursu, düşünülmüş və gələcəyə hesablanmış əməli addımları dayanır. Həm respublikaya birinci dəfə rəhbərlik etdiyi 1969-1982-ci illərdə, həm SSRİ-nin ali hakimiyyət orqanlarında təmsil olunduğu dövrdə, həm də müstəqil Azərbaycanın Prezidenti kimi fəaliyyətində Heydər Əliyev Vətənimizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sahələrində dirçəlişə xidmət edib, onun tərəqqisi üçün var qüvvəsi ilə çalışıb: «1969-cu ilin iyul ayından etibarən Ulu Öndərin Azərbaycana birinci rəhbərliyi dövründə respublikamızda bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də əsaslı dönüş yarandı. Belə ki, 1960-cı illərdə Azərbaycan səhiyyəsində maddi-texniki bazanın zəifliyi, kadr çatışmazlığı, ana və uşaq sağlamlığının qorunması, bir sıra infeksion xəstəliklər




üzrə yaranmış vəziyyət öz həllini gözləyən problemlər idi.



Səciyyəvidir ki, artıq 1969-cu ildə məhz Ulu Öndərin təşəbbüsü ilə bu problemlərin həlli üçün Azərbaycan Respublikası Ali Soveti tərəfindən «Sağlamlıq Məcəlləsi» adlı sənəd qəbul edildi. Həmin Məcəllə fəaliyyət planı olaraq səhiyyənin inkişaf istiqamətlərini müəyyən etdi, gələcək nailiyyətlərin bünövrəsində dayandı. Səhiyyənin maddi-texniki bazasının möhkəmləndirilməsi üçün Heydər Əliyevin göstərişi ilə səhiyyə ocaqlarının yenidən qurulması, yeni tibb müəssisələrinin tikilməsi üzrə irimiqyaslı layihələr həyata keçirildi. O cümlədən yararsız binalarda yerləşən tibb müəssisələri üçün yeni binalar inşa edildi. Uroloji Kliniki Xəstəxana, neyrocərrahiyyə, toksikologiya, yanıq mərkəzləri, yeni poliklinikalar istifadəyə verildi. Elmi Tədqiqat Oftalmologiya və Onkologiya İnstitutları üçün yeni binaların tikintisinə başlandı. Kadr çatışmazlığı problemini həll etmək, ölkə səhiyyəsini yüksəkixtisaslı kadrlarla təmin etmək məqsədilə həkimlərin və təbabət alimlərinin hazırlığı yüksək vüsət aldı, yeni elmi mərkəzlər açıldı, təbabət üzrə elmi-tədqiqat institutlarının fəaliyyəti canlandırıldı. Respublikada tibb təhsilindən əlavə, Ümummilli Liderin təşəbbüsü ilə perspektivli gənclər SSRİ-nin qabaqcıl ali təhsil ocaqlarında oxumağa göndərildilər. Eyni zamanda, tibb elminin inkişafı, gənc azərbaycanlı alimlərin İttifaq səviyyəli tibb ocaqlarında elmi-tədqiqatlar aparması üçün aspiranturaya da göndərişlər verildi».

Nazir Teymur Musayev bildirib ki, 1993-cü ildə Ümummilli Lider müstəqilliyini yenicə bərpa etmiş ölkəmizə geri dönəndə, xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdanda Vətənimiz və səhiyyəmiz çətin dövr yaşayırdı. Xarici təcavüz, iqtisadi tənəzzül, siyasi hərc-mərclik, qaçqın və məcburi köçkünlərin problemi bir çox sahələr kimi, səhiyyəni də ağır duruma salmışdı: «Belə bir şəraitdə Heydər Əliyev ölkə səhiyyəsində də pərakəndəliyin, dağıntıların qarşısını ala bildi, əhalinin sağlamlığının qorunması üzrə bir neçə istiqamətdə fəaliyyətə başladı və bunların hər birində uğurlar əldə etdi. Beləliklə, əminliklə deyə bilərik ki, ölkəmizin ictimai həyatının bütün sahələrində olduğu kimi, səhiyyə sahəsində də həyata keçirilən islahatlar, inkişaf və tərəqqi Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Azərbaycanın özü ilə birlikdə, onun səhiyyə sisteminin də xilaskarına çevrildi. Səhiyyəmizin inkişafı yolunda Ümummilli Liderin xalqının hər bir nümayəndəsinin gələcəyini düşünərək gördüyü işlər öz dəyəri, böyüklüyü ilə əvəzsizdir.

Ümummilli Lider Heydər Əliyevin əhalinin sağlamlığının qorunması üzrə müəyyənləşdirdiyi kurs bu gün də uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahədə fəaliyyəti sayəsində Azərbaycan səhiyyəsi son 20 il ərzində böyük inkişaf yolu keçib. Əhalinin sağlamlıq göstəricilərində müsbət dinamika görülən işlərin uğurlu nəticəsidir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da daim səhiyyəmizin hamisi kimi çıxış edir.

*(Davamı səhifə 10-da)*

# Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası

## *Azərbaycan nümayəndə heyəti sessiyanın işində iştirak edib*

**İsveçrənin Cenevrə şəhərində Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ali qərarverici və siyasət müəyyən edici orqanı olan Ümumdünya Səhiyyə Assambleyasının (ÜSA) 76-cı sessiyası keçirilib.**

ÜST-nin bütün üzv dövlətlərinin nümayəndələrinin iştirak etdiyi, hər il keçirilən bu ali toplantıda iştirakçılar İcraiyyə Komitəsi tərəfindən hazırlanmış gündəliyə əsasən dünya səhiyyəsi qarşısında dayanan ən aktual məsələləri müzakirə edirlər. Assambleyanın əsas vəzifələri ÜST-nin fəaliyyət istiqamətlərini müəyyənləşdirmək, qurumun baş direktorunu təyin etmək, maliyyə fəaliyyətinə nəzarət etmək, büdcəsini müzakirə və təsdiq etməkdir.

Səhiyyə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, Ümumdünya Səhiyyə Assambleyasında Azərbaycan Respublikası səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti ilə təmsil olunub.

### Antonio Quterreş: «Sağlamlıq üçün bütün gələcək təhdidlərə çox ciddi hazırlaşmalıyıq»

76-cı sessiyanın ÜST-nin Cenevrədəki mənzil qərargahında keçirilmiş açılış mərasimində Birləşmiş Millətlər Təşkilatının (BMT) baş katibi Antonio Quterreşin Ümumdünya Səhiyyə Assambleyasının iştirakçılarına videoformatda müraciəti yayımlanıb.

Baş katib çıxışında bildirib ki, Ümumdünya Səhiyyə Təşkilatı mövcud olduğu 75 il ərzində insanların mühafizəsində nəzərəçarpan irəliləyişə nail olub: «Bu müddətdə insanların uzunömürlülüyünün orta göstəricisi 50 faizdən çox artıb, uşaq ölümü son 30 il ərzində 60 faizdən çox azalıb, çiçək xəstəliyi aradan qaldırılıb, poliomielit isə yoxolma həddindədir».

Bununla belə, A.Quterreş təəssüflə qeyd edib ki, ÜST-nin yarandığı dövrdən bəri əldə etdiyi irəliləyiş müharibələr və iqlim dəyişmələri səbəbindən təhlükəyə məruz qalıb: «Lakin bu irəliləyiş təhlükə altındadır: müharibələr və münaqişələr milyardlarla insanı təhdid edir, iqlim sahəsindəki böhran nəticəsində milyardlarla insanın sağlamlığı təhlükə ilə üz-üzədir. COVID-19 pandemiyası ictimai səhiyyədə irəliləyişi ləngidib və hətta gerilədib».

Baş katibin fikrincə, yalnız dünyanın əlaqələndirilmiş fəaliyyət göstərəcəyi təqdirdə tərəqqi yoluna qayıtmaq mümkündür. «Yeni pandemiyalardan tutmuş iqlim dəyişmələrinədək — sağlamlıq üçün bütün gələcək təhdidlərə çox ciddi hazırlaşmaq lazımdır ki, mümkün olduğu hallarda biz onların qarşısını ala bilək, mümkün olmadığı hallarda isə onlara tez və effektli reaksiya verək», — deyə BMT-nin rəhbəri qeyd edib. O, ümidvar olduğunu bildirib ki, pandemiyanın qarşısının alınması barədə hazırda aparılan danışıqlar insanların həyatını xilas edən güclü hərtərəfli yanaşmalarla başa çatacaq. Quterreş ölkələri birgə işləməyə və ÜST-ni hamı üçün yüksək sağlamlıq standartlarına nail olmaqda dəstəkləməyə çağırıb.

### Tedros Gebreyesus: «Ortaq təhdidlərə birgə reaksiya verilməsi zərurəti pandemiyanın əsas ibrət dərsidir»

ÜST-nin baş direktoru Tedros Adhanom Gebreyesus Assambleyadakı çıxışında təşkilatın öz fəaliyyətində üzləşdiyi çətin problemləri xarakterizə edib. O bildirib ki, son 20 ildə dünyanın ÜST-nin fəaliyyəti ilə bağlı gözləntiləri artıb, təşkilatın sərəncamında olan ehtiyatlar isə artmayıb. O, problemlərdən biri kimi, ÜST-nin getdikcə siyasiləşdirilmiş mühitdə hərəkət etmək məcburiyyətində olması faktını vurğulayıb.

Koronavirus pandemiyasından danışan Tedros Gebreyesus ortaq təhdidlərə birgə reaksiya verilməsi zəruriliyinin dərk edilməsini onun «əsas ibrət dərsi» adlandırıb: «ÜST-yə üzv ölkələrin hazırda barəsində danışıqlar apardığı pandemiyaya reaksiya verilməsi barədə razılaşma səhiyyə sahəsində qlobal təhlükəsizlik paradiqmasını dəyişməyə qadir olan tarixi razılaşmaya çevrilməlidir».




Sessiya günlərində iştirakçılar dünya səhiyyəsi qarşısında dayanan və dövlətlərin əlaqələndirilmiş fəaliyyətini tələb edən bir sıra məsələlərə baxıblar. O cümlədən, səhiyyə xidmətləri ilə ümumi əhatəolunma, bunun dayanıqlı əsası kimi, səhiyyə sistemlərinin ilkin tibbi-sanitar yardım yönümlü olmağa istiqamətləndirilməsi, BMT Baş Assambleyasının səhiyyə xidmətləri ilə ümumi əhatəolunma məsələsi üzrə yüksək səviyyəli iclasına hazırlıq, ictimai səhiyyə sahəsində fövqəladə hallar, onlara hazırlıq və cavab tədbirləri, ÜST-nin bu hallarda fəaliyyəti, lazımi keyfiyyətdə olmayan və saxta tibbi məhsullar, səhiyyə sistemlərində reabilitasiyanın gücləndirilməsi kimi ciddi mövzular müzakirə olunub.

Həmçinin bir sıra sənədlər, o cümlədən «Qadın, uşaq və yeniyetmələrin sağlamlığının mühafizəsi üzrə qlobal strategiya (2016-2030-cu illər)», Baş Assambleyanın qeyri-infeksion xəstəliklər və onlarla mübarizə, psixi sağlamlığın qorunması üzrə yüksək səviyyəli üçüncü iclasının siyasi bəyannaməsi, «Qlobal səhiyyə sülh maraqlarında» təşəbbüsü, «İnfeksiyaların profilaktikası və infeksion nəzarət üzrə qlobal strategiya» layihəsi, 2024-2025-ci illər üçün proqram büdcəsi layihəsi və sair sənədlər müzakirə edilib.

### «Qoşulmama Hərəkatı ÜST ilə əməkdaşlığa hazırdır»

Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyasında Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayev Qoşulmama Hərəkatı (QH) adından Bəyanat səsləndirib.

Çıxışına ÜST-nin təsis olunmasının 75-ci ildönümü münasibətilə QH üzv ölkələri adından təbriklə başlayan səhiyyə naziri qeyd edib ki, bu ölkələr hər bir insanın tibbi xidmətlərə çıxışının təmin edilməsinin mühüm məsələ olduğunu vurğulayır.

Nazir SARS-COV-2 pandemiyasının nəticələrinin idarə olunması üçün Qoşulmama Hərəkatının ÜST ilə əməkdaşlığa hazır olduğunu deyib. Hərəkat pandemiyanın təsirlərinin aradan qaldırılması üçün qlobal səylərin gücləndirilməsində mühüm rol oynayıb. Belə ki, peyvəndlərə bərabər, vaxtında və universal çıxışın təmin edilməsinə dair qətnamə BMT-nin İnsan Hüquqları Şurası tərəfindən qəbul edilib. Eyni zamanda, QH üzv ölkələrinin COVID-19-a qarşı tibbi və humanitar ehtiyaclarına dair məlumat bazası istifadəyə verilib. Hərəkat COVID-19-a qarşı vaksin ianə edən ölkələrin səylərini yüksək qiymətləndirir.

Qoşulmama Hərəkatı 2023-cü il martın 2-də Bakıda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçirilmiş COVID-19-a cavab olaraq pandemiyadan sonrakı qlobal canlanma üzrə Hərəkatın Təmas Qrupunun Sammit səviyyəli görüşünü alqışlayır.

QH üzv ölkələri səhiyyədə təhlükəsizlik və daha güclü səhiyyə sistemlərini təmin etmək üçün Universal Səhiyyə Əhatəliliyinə və 2030-cu il kimi səhiyyə ilə bağlı Davamlı İnkişaf Məqsədlərinə nail olmağa sadiqliyini bir daha ifadə edir.

Sonda Teymur Musayev QH-nin Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyasında iştirak edən dövlətlərin gələcək pandemiyalara daha hazırlıqlı olması üçün səhiyyədə effektiv tədbirləri prioritetləşdirməkdə həmrəyliyinə ümidvar olduğunu bildirib.

### Teymur Musayev: «Minalar səhiyyəmiz və əhalimizin sağlamlığı üçün mühüm təhdiddir»

Ümumdünya Səhiyyə Assambleyasının sessiyasında ölkə adından çıxış edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, səhiyyə naziri Teymur Musayev tədbir iştirakçılarını salamlayaraq, Ümumdünya Səhiyyə Təşkilatının 75 illik yubileyi münasibətilə təbriklərini səsləndirib.

Çıxışında nazir xalqımızın Ümummilli Lideri, bu il ölkəmizdə 100 illik yubileyi qeyd edilən Heydər Əliyevin müasir Azərbaycan səhiyyə sisteminin inkişafında, əldə etdiyi nailiyyətlərdə və ölkəmizin ÜST-yə üzvlüyünün həyata keçirilməsində müstəsna rolunu vurğulayıb.

Teymur Musayev qeyd edib ki, hazırda səhiyyə sistemlərinin və dünya iqtisadiyyatının COVID-19 pandemiyasından sonrakı bərpa dövrünə tədricən keçidi reallaşmaqdadır. O, Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası ərəfəsində qlobal səhiyyə problemlərini və onların müvafiq həll yollarını müzakirə etmək məqsədilə Azərbaycanın sədrliyi ilə Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin videokonfrans formatında keçirilmiş növbəti görüşü haqqında məlumat verib.

Nazir Azərbaycanın işğal altında olan ərazilərinin 2020-ci ildə 44 günlük Vətən müharibəsi nəticəsində azad edilməsindən sonra mövcud vəziyyətə dair məlumatı iclas iştirakçılarının diqqətinə çatdırıb: «Hazırda işğaldan azad edilmiş ərazilərin bərpası, keçmiş məcburi köçkünlərin öz torpaqlarına qayıtması istiqamətində böyük işlər görülür. Lakin azad olunmuş torpaqların hədsiz dərəcədə minalanması əhalinin təhlükəsiz geri qayıtmasına ciddi maneələr yaradır. Müharibə başa çatdıqdan sonra mina partlayışları nəticəsində əksəriyyəti mülki şəxslər olmaqla 300-dən çox vətəndaş həlak olub və ya ağır yaralanıb. Bu, səhiyyəmiz və əhalimizin sağlamlığı üçün mühüm təhdiddir. Plenar iclas vasitəsilə dünya ictimaiyyətinin diqqətini mina terroru probleminə və onun səhiyyə sistemlərinə təsirinə cəlb etmək istərdik».

Nazir Ermənistan nümayəndəsinin yenidən Azərbaycana qarşı ÜST-nin gündəliyinə aidiyyəti olmayan siyasi məsələ ilə bağlı əsassız ittihamlar səsləndirdiyini təəssüf hissi ilə qeyd edib: «Azərbaycan Ermənistanın ərazisinə təcavüz etmək cəhdi kimi səsləndirilən fikirləri əsassız sayır və qətiyyətlə qəbul etmir. Azərbaycan ərazisində on mindən artıq erməni hərbçilərinin mövcudluğu regionda gərginliyin və vətəndaşlarımızın təhlükəsizliyinə təhdidlərin əsas mənbəyidir. Ermənistan Laçın yolundan sui-istifadə edərək Azərbaycanda yerləşdirilən silahlı qüvvələrinin rotasiyasını həyata keçirib, onları silah-sursatla təmin edib, çoxsaylı minalar basdırıb, üçüncü ölkə vətəndaşlarının ölkəmizə qanunsuz səfərlərini təşkil edib».

Teymur Musayev sessiya iştirakçılarının bir daha diqqətinə çatdırıb ki, Azərbaycan dövləti beynəlxalq müstəvidə suveren hüquqlarına uyğun olaraq, habelə 2020-ci ilin noyabr ayında imzalanmış üçtərəfli Bəyanata əsasən dəhliz üzrə yüklərin daşınmasının şəffaflığını və təhlükəsizliyini təmin etmək məqsədilə Laçında sərhəd-keçid məntəqəsi quraşdırıb.

Nazir Azərbaycan dövləti tərəfindən onun suveren ərazisində yaşayan erməni sakinlərinin yenidən siyasi, iqtisadi və sosial çərçivələrlə inteqrasiyası istiqamətində ardıcıl səylərin davam etdiriləcəyini bildirib: «Biz Ermənistan nümayəndəsini beynəlxalq ictimaiyyəti çaşdırmaq cəhdlərindən əl çəkməyə dəvət edirik. Əksinə, Ermənistan Baş nazirinin bu günlərdə açıq şəkildə səsləndirdiyi bəyanatına əsasən, iki dövlət arasında münasibətlərin normallaşması prosesinə dəstək verməyini tövsiyə edirik».

Teymur Musayev həmçinin ərazi bütövlüyünə hörmət və suveren dövlətlərin daxili işlərinə qarışmamağın Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində təsbit olunmuş mühüm prinsiplərdən olduğunu qeyd edib.

ÜSA-nın sessiyası çərçivəsində səhiyyə naziri Teymur Musayevin bir sıra ikitərəfli görüşləri, digər işçi tədbirlər də keçirilib.

# Səhiyyə naziri ilə ÜST baş direktoru səhiyyə böhranlarına hazırlıq və cavab tədbirlərini müzakirə ediblər




**Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası çərçivəsində Azərbaycan nümayəndə heyətinin rəhbəri, səhiyyə naziri Teymur Musayevlə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesus arasında görüş keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, görüşün əvvəlində Azərbaycan nümayəndə heyətinin rəhbəri Ümumdünya Səhiyyə Təşkilatının 75 illik yubileyi münasibətilə ÜST-nin Baş direktorunu təbrik edib.

Nazir Teymur Musayev bu il Azərbaycanda 100 illik yubileyi qeyd olunan, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ölkəmizin ÜST ilə uğurlu və sıx əməkdaşlığının əsasını qoyduğunu diqqətə çatdırıb. Həmçinin Prezident İlham Əliyevin bu nüfuzlu səhiyyə təşkilatı ilə münasibətlərin daha da inkişafına böyük önəm verdiyini vurğulayıb.

Nazir COVID-19 pandemiyası dövründə Azərbaycan Respublikası Prezidentinin Qoşulmama Hərəkatının sədri qismində pandemiya ilə mübarizədə qlobal səylərin səfərbər edilməsi üçün bir sıra təşəbbüslər irəli sürdüyünü xatırladıb.

Ümumdünya Səhiyyə Təşkilatının COVID-19-la bağlı fövqəladə vəziyyətin başa çatmasını elan etdiyini vurğulayan Teymur Musayev pandemiya dövründə ÜST-nin Azərbaycanla səmərəli əməkdaşlığına verdiyi dəstəyə görə qurumun rəhbərinə təşəkkürünü ifadə edib.

Təşkilatın baş direktoru Tedros Gebreyesus Azərbaycan Prezidenti İlham Əliyevin ÜST ilə əməkdaşlığa verdiyi önəmi yüksək qiymətləndirib. Xüsusən pandemiya dövründə ölkəmizin təşkilata etdiyi humanitar yardımları, eyni zamanda, xəstəliyin aradan qaldırılması məqsədilə ölkələri birgə əməkdaşlığa səsləyən qlobal çağırışları xatırladıb.

Baş direktor həmçinin Azərbaycanın malyariyadan azad ölkə elan edilməsi münasibətilə təbriklərini çatdırıb və bu təcrübənin digər ölkələr üçün də bir nümunə olduğunu bildirib.

Sonda tərəflər arasında səhiyyə böhranlarına hazırlıq və cavab tədbirlərinin gücləndirilməsi, ilkin səhiyyə xidmətlərində beynəlxalq səviyyədə təsdiq olunmuş rəqəmsal həllərin tətbiqinin vacibliyi, eləcə də qarşılıqlı maraq kəsb edən digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# ÜST Avropa regional direktoru: «ÜST-nin Azərbaycanla əməkdaşlığı çox uğurludur»




**Cenevrədə Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası çərçivəsində Azərbaycan Respublikası səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyəti ilə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Avropa üzrə regional direktoru Hans Henri Klüge arasında görüş keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidməti xəbər verir ki, görüşdə səhiyyə naziri Teymur Musayev ölkəmizin ÜST ilə əməkdaşlığa böyük önəm verdiyini vurğulayaraq deyib: «Azərbaycan nüfuzlu səhiyyə təşkilatı ilə 1992-ci ildən sıx əməkdaşlıq edir. Ötən müddət ərzində regional və qlobal səviyyələrdə uğurlu layihələr həyata keçirilib».

Nazir, eyni zamanda, COVID-19 ilə mübarizədə ölkə daxilində görülən işlər, habelə beynəlxalq müstəvidə Azərbaycanın göstərdiyi yardım və irəli sürdüyü təşəbbüsləri qeyd edib.

Sonra Teymur Musayev son günlər Ermənistan mediasında ÜST-nin həmin ölkədəki nümayəndəliyinin rəsmiləri ilə Ermənistan səhiyyə naziri arasında keçirilmiş görüşdə ÜST rəsmisi tərəfindən Azərbaycan Respublikasının suveren əraziləri ilə bağlı həqiqətə uyğun olmayan, qərəzli və mandatdan kənara çıxan fikirlərin yayılmasından narahatlığını qarşı tərəfin diqqətinə çatdırıb.

Hans Henri Klüge məsələyə dair təşkilatın Ermənistandakı nümayəndəliyi ilə əlaqə saxladığını, ÜST-nin Ermənistandakı nümayəndəliyi ilə səhiyyə naziri arasında keçirilən görüşdə Azərbaycana aid heç bir fikir səsləndirilmədiyini, ümumilikdə, ÜST-nin dünyada tibb personalına qarşı hücumları pislədiyini bildirib. O, hadisə ilə bağlı hər hansı bir məlumatın ÜST-nin rəsmi internet səhifəsində yayımlanmadığını vurğulayıb.

Görüşdə Azərbaycan tərəfi ÜST-nin regiondakı ofislərini bölgədə sülh gündəliyinə doğru aparılan səyləri əngəlləyən hər hansı siyasi bəyanatlardan çəkinməyə və bu fəaliyyətlərə Təşkilatın rəhbərliyi tərəfindən nəzarəti gücləndirməyə çağırıb.

Hans Klüge ÜST-nin öz fəaliyyətini siyasiləşdirmədən, bitərəf və qərəzsiz şəkildə bundan sonra da davam etdirəcəyinə əminliyini ifadə edib.

Daha sonra Hans Henri Klüge ÜST-nin Azərbaycanla əməkdaşlığının çox uğurlu olduğunu vurğulayıb. Koronavirus infeksiyası mövzusuna toxunan ÜST-nin Avropa üzrə regional direktoru COVID-19 peyvəndlərinin digər ölkələrə göndərilməsi kimi humanist addıma görə Azərbaycan rəhbərliyinə təşəkkürünü ifadə edib. Həmçinin Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycanın fəaliyyətini yüksək qiymətləndirib.

Görüşdə təşkilatla ölkəmiz arasında mövcud sıx əlaqələr və səhiyyə sahəsində əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Teymur Musayev: «Qlobal Fondun layihələri ölkəmizin vərəmlə mübarizəsinə böyük töhfə verir»

**Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası çərçivəsində Azərbaycanın nümayəndə heyəti QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fondun Qrant İdarəetmə şöbəsinin rəhbəri Mark Edinqtonun başçılıq etdiyi missiya ilə görüş keçirib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirildiyinə görə, görüş zamanı səhiyyə naziri Teymur Musayev Azərbaycanın Qlobal Fond ilə əlaqələrə və əməkdaşlığa hər zaman önəm verdiyini qeyd edib. Onun sözlərinə görə, 2005-ci ildən QİÇS, Vərəm və Malyariya ilə Mübarizə üzrə Qlobal Fond ölkəmizdə vərəm əleyhinə fəaliyyətin dəstəklənməsində yaxından iştirak edir: «Hazırda Azərbaycanda Qlobal Fondun layihələri davamlı olaraq həyata keçirilir və ölkəmizin vərəmlə mübarizəsinə böyük töhfə verir».

Nazir öz çıxışında vurğulayıb ki, bu ilin mart ayında Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən malyariyadan azad ölkə elan edilib: «Bununla bağlı Ümumdünya Səhiyyə Təşkilatının Avropa regional ofisi məlumat yayıb. Məlumatda həmin nailiyyətin əldə olunmasının səhiyyə işçilərinin peşəkarlığı, həmçinin malyariya hallarının məqsədyönlü şəkildə qarşısının alınması, erkən aşkarlanması və müalicəsi sayəsində mümkün olduğu deyilir».

Teymur Musayev gələcəkdə Azərbaycan Səhiyyə Nazirliyi ilə Qlobal Fond arasında səmərəli əməkdaşlığın daha da uğurla inkişaf edəcəyinə ümidvar olduğunu deyib.

Öz növbəsində Qlobal Fondun missiya rəhbəri Azərbaycanın ölkədə malyariya xəstəliyinin aradan qaldırılması istiqamətində həyata keçirdiyi tədbirləri yüksək qiymətləndirib. Mark Edinqton həmçinin ötən ildən etibarən Səhiyyə Nazirliyinin Respublika QİÇS-lə Mübarizə Mərkəzi tərəfindən Qlobal Fondun dəstəyi ilə Azərbaycanda İnsanın İmmunçatışmazlığı Virusunun (İİV) təmasdan öncə profilaktikası (TÖP - PrEP) pilot layihəsinin icrasının başlamasından bəhs edib: «Həmin yeni metod riskli təmaslar zamanı İİV-ə yoluxmanın qarşısını almaqdan ötrü sağlam insanlar tərəfindən antiretrovirus dərman vasitələrindən istifadəni nəzərdə tutur».

Görüşdə həmçinin əməkdaşlığın mövcud vəziyyəti və potensial inkişaf imkanları müzakirə olunub.

# Səhiyyə naziri Teymur Musayevin sədrliyi ilə İƏT dövlətlərinin səhiyyə nazirlərinin iclası keçirilib

**Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası çərçivəsində Azərbaycan Respublikasının səhiyyə naziri Teymur Musayevin sədrliyi ilə İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin səhiyyə nazirlərinin 5-ci iclası keçirilib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, iclasın sədri seçilməsi üçün, Baş katibin verdiyi bəyanat üçün təşəkkür bildirən nazir Teymur Musayev İƏT səhiyyə nazirlərinin budəfəki görüşünün Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) COVID-19-la bağlı fövqəladə vəziyyətin başa çatdığını elan etməsindən sonra ilk iclası olduğunu xatırladıb, Azərbaycanın 1992-ci ildə İƏT-ə üzv seçildiyini və təşkilatın işində fəal iştirak etdiyini deyib. Bildirib ki, Bakıda 2010-cu ildə İƏT-ə üzv ölkələrin səhiyyə nazirlərinin 1-ci görüşü keçirilib: «Bu il ölkəmiz İƏT-də sədrlik mandatından istifadə edərək təşkilatın üzv ölkələrini pandemiyadan sonrakı bərpa reallıqlarını müzakirə etməyə, həmin mövzu ətrafında təcrübə mübadiləsinə və daha sıx əməkdaşlığa dəvət edir».

Teymur Musayev son 15 il ərzində Azərbaycan milli səhiyyəsinin və tibb elminin potensialının gücləndirilməsi istiqamətində görülən konstruktiv işlər barədə məlumat verib. Diqqətə çatdırıb ki, bu müddətdə müasir tibbi avadanlıqlarla təchiz edilmiş 700-dən çox tibb müəssisəsi tikilib və əsaslı təmir olunub, səhiyyədə peşəkar tibbi kadr potensialının gücləndirilməsi sahəsində mühüm nailiyyətlər əldə edilib.

*(Davamı səhifə 8-də)*

# Səhiyyə naziri Teymur Musayevin sədrliyi ilə İƏT dövlətlərinin səhiyyə nazirlərinin iclası keçirilib

*(Əvvəli səhifə 7-də)*




Nazir həmçinin COVID-19 pandemiyasının yaratdığı çətinliklər və əldə olunan təcrübə barədə danışıb, pandemiyanın başlanğıcından qısa müddət ərzində Azərbaycan hökuməti tərəfindən COVID-19-la mübarizədə dövlət orqanlarının fəaliyyətini əlaqələndirmək üçün İşçi Qrup yaradıldığını, ciddi və sərt təcrid tədbirlərinin tətbiq edildiyini, diaqnostik laboratoriyaların sayının əhəmiyyətli dərəcədə artırıldığını, modul tipli xəstəxanaların istifadəyə verildiyini və digər zəruri işlər görüldüyünü söyləyib.

Beynəlxalq müstəvidə Azərbaycanın atdığı humanist addımlardan danışan nazir Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə ianəsi edildiyini, koronavirusa qarşı mübarizəni dəstəkləmək üçün Qoşulmama Hərəkatının üzvləri və digər ölkələrə 150 min doza peyvənd göndərildiyini deyib: «Eyni zamanda, başqa ölkələrdən, o cümlədən Çindən, Rusiyadan, Türkiyədən, Avropa İttifaqından humanitar yardımlar alındı. Bu, hamımıza pandemiyanın öhdəsindən gəlməyə kömək edən beynəlxalq həmrəyliyin göstəricisi idi. İndi pandemiyadan sonrakı bərpa haqqında düşünməyin vaxtıdır. Ümumi canlanma ölkələrimizin iqtisadiyyatının bərpası ilə birbaşa bağlıdır. Bu baxımdan, İƏT ölkələrinin əməkdaşlığının genişləndirilməsi olduqca önəmlidir», – deyə nazir bildirib.

Diqqətə çatdırılıb ki, Azərbaycan hökumətinin müraciəti əsasında ÜST ekspertlər qrupu tərəfindən Beynəlxalq Səhiyyə Qaydalarına dair uğurlu Birgə Xarici Qiymətləndirmə aparılıb. Bu, ölkə səhiyyə sisteminin problemlərinin aşkar edilməsinə və gələcək fövqəladə hallara hazırlığının təkmilləşdirilməsinə kömək edir.

Azərbaycanın səhiyyə naziri çıxışında həmçinin bildirib: «COVID-19-la mübarizə təcrübəsi göstərdi ki, hazırlıq və cavab planları icmaların və özəl sektorun fəal iştirakı ilə dövlət və qeyri-hökumət orqanları arasında əlaqələndirilmiş əməkdaşlığı ehtiva etməlidir. Maliyyə və insan resurslarının səfərbər edilməsi mexanizminin olması da vacibdir. Beynəlxalq məsləhətçilik, ÜST kimi nüfuzlu beynəlxalq tərəflərlə əməkdaşlıq ən yaxşı təcrübələrə və yardıma çıxış əldə etmək üçün çox zəruridir. Xəstəliklərin immunizasiyası və profilaktikası üzrə müntəzəm işlər səhiyyə sahəsində fövqəladə halların vətəndaşlarımızın rifahına mənfi təsirini azaltmağa kömək edir. Eyni zamanda, səhiyyə sistemlərinin gücləndirilməsi, tibbi təhsil təsisatlarının müasir dövrün çağırışlarına əsasən əməkdaşlığı, insan resurslarının davamlı peşəkar inkişafı, səhiyyədə texnoloji innovasiyaların tətbiqi iclasın prioritet məsələlərindəndir».

Daha sonra İƏT üzv ölkələrinin səhiyyə nazirlərinin çıxışları dinlənilib.

İclasın yekununda «Səhiyyə sahəsində əməkdaşlığa dair 2016-2025-ci illər üçün Yenidən İşlənmiş Fəaliyyət Planı» təsdiqlənib.

# Azərbaycan nümayəndə heyəti Cenevrədə bir sıra ikitərəfli görüşlər keçirib

**Cenevrədə Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası çərçivəsində Azərbaycanın səhiyyə naziri Teymur Musayevin rəhbərlik etdiyi nümayəndə heyəti səhiyyə sektorunda beynəlxalq əməkdaşlığın gücləndirilməsi məqsədilə təşkilatın üzv ölkələrinin səhiyyə nazirləri və tibb sahəsində bəzi aparıcı beynəlxalq şirkətlərin rəhbərləri ilə ikitərəfli görüşlər və digər işgüzar tədbirlər keçirib.**

Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirildiyinə görə, Azərbaycan nümayəndə heyəti ilə tibbi və rəqəmsal texnologiyaların inkişafı sahəsində dünyanın aparıcı şirkətlərindən biri olan «Siemens Healthineers»in rəhbərliyi arasında ikitərəfli görüş baş tutub.

Görüş zamanı səhiyyə naziri Teymur Musayev və «Siemens Healthineers» şirkətinin rəhbərliyi ikitərəfli əməkdaşlığın inkişaf perspektivlərini müzakirə ediblər. Eyni zamanda, səhiyyə sahəsində mütərrəqi texnologiyaların, süni intellektin və innovativ nailiyyətlərin Azərbaycan təcrübəsində də tətbiqi imkanlarına və bu sahənin perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

## Tibb təhsili üzrə Azərbaycan - Kuba əməkdaşlığı müzakirə edilib

Azərbaycan səhiyyə naziri Teymur Musayevin başçılıq etdiyi nümayəndə heyətinin daha bir görüşü Kubanın ictimai səhiyyə naziri Xose Anxel Portal Mirandanın başçılıq etdiyi nümayəndə heyəti ilə baş tutub.

Görüşdə nazir Teymur Musayev ölkələrimiz arasında digər sahələrdə olduğu kimi, səhiyyə və tibb elmi sahəsində də əməkdaşlığın nümunəvi olduğunu diqqətə çatdırıb. Onun sözlərinə görə, 2020-ci ildə COVID-19 infeksiyasının geniş yayılmasının qarşısının alınması istiqamətindəki tədbirlər çərçivəsində kubalı mütəxəssislərdən ibarət həkim briqadalarının ölkəmizə gəlməsi buna bariz nümunədir. «Bu addım Azərbaycan və Kuba arasında ikitərəfli münasibətlərin daha da möhkəmlənməsinə, davamlılığın təmin edilməsinə xidmət edir», – deyə nazir vurğulayıb.

Teymur Musayev Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi fəaliyyətini də qeyd edib: «Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində bir sıra qlobal təşəbbüslərlə çıxış edib. Belə ki, Azərbaycan Respublikasının Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyevin təşəbbüsü nəticəsində peyvəndlərə bərabər və universal çıxışın təmin edilməsinə dair qətnamə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Şurası tərəfindən qəbul edilib».





Teymur Musayev ölkələrimizin Səhiyyə nazirlikləri arasında əməkdaşlığın bundan sonra da uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Öz növbəsində Xose Anxel Portal Miranda Azərbaycan və Kuba arasında bir çox sahələrdə sıx əlaqələrin mövcudluğunu vurğulayıb: «COVID-19 pandemiyası zamanı Kubadan həkim briqadalarının Azərbaycana gəlməsi bu münasibətlərin əyani göstəricisidir. İnanıram ki, əlaqələrimiz bundan sonra da yüksələn xətlə inkişaf edəcək».

Sonda Kubanın ictimai səhiyyə naziri bütün sahələrdə olduğu kimi, səhiyyə sahəsində də əməkdaşlığın genişləndirilməsinin vacibliyini bildirib.

Görüşdə Azərbaycanla Kuba arasında tibb müəssisələri və tibb təhsili üzrə əməkdaşlıq, əczaçılıq sahəsində tədqiqat və inkişaf fəaliyyətlərinə dair qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş müzakirələr aparılıb.

## Niderland - Azərbaycan səhiyyə əməkdaşlığı üçün böyük imkanlar var

Niderlandın ictimai səhiyyə, sosial təminat və idman naziri Ernst Keypersin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşdə ölkələrimiz arasında bir çox sahələrdə ikitərəfli əlaqələrin inkişaf etdiyini qeyd edən Teymur Musayev milli səhiyyə müəssisələri arasında təcrübə mübadiləsi üçün böyük potensialın olduğunu vurğulayıb. Onun sözlərinə görə, yüksək ixtisaslı həkimləri və müasir tibb müəssisələrini özündə birləşdirən Niderland səhiyyə sistemi Avropada nümunəvi model kimi tanınır. Niderland həmçinin əczaçılıq və tibb avadanlıqlarının istehsalı və satışı üzrə dünyanın aparıcı ölkələrindən biridir.

Sonda Teymur Musayev ölkələrimizin səhiyyə nazirlikləri arasında gələcəkdə əməkdaşlığın daha da uğurla inkişaf etdiriləcəyinə ümidvar olduğunu deyib.

Öz növbəsində Ernst Keypers də nazirliklər arasında qarşılıqlı səmərəli əlaqələrin qurulmasında maraqlı olduğunu bildirib. Niderlandın ictimai səhiyyə, sosial təminat və idman naziri qeyd edib ki, ölkələrimizin səhiyyəsinin səmərəliliyini artırmaq məqsədilə tibb təhsili sahəsində qarşılıqlı fəaliyyət üçün bütün zəruri vasitələr mövcuddur.

Görüşdə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın genişləndirilməsi, transplantasiya sahəsində akademik təcrübələrin tətbiqi, birgə layihələrin həyata keçirilməsi və maraq doğuran digər məsələlərlə bağlı geniş fikir mübadiləsi aparılıb.

## Dərman preparatlarının ölkəmizdə istehsalı məsələləri müzakirə olunub

Azərbaycanın nümayəndə heyəti tibbi avadanlıqların istehsalı üzrə dünya lideri olan «Royal Philips» şirkətinin vitse-prezidenti Jan-Villem Şeiqrondla da görüş keçirib. Görüş zamanı şirkətin istehsal etdiyi yüksək texnoloji avadanlıqların Azərbaycan səhiyyəsində tətbiqi, ölkəmizin tibbi tədqiqatlar zamanı şirkətin nou-hau nailiyyətlərini tətbiq etməsi geniş müzakirə predmeti olub.

Azərbaycanın nümayəndə heyəti həyat xilasedici dərmanlara çıxış imkanlarının genişləndirilməsinə və onların inkişafının təşviqinə həsr olunmuş fəaliyyətinə görə BMT-nin dəstəklədiyi ictimai səhiyyə təşkilatı olan «Medicines Patent Pool»un icraçı direktoru Çarlz Qorla da görüş keçirib. Görüş çərçivəsində əczaçılıq sahəsində yüksəkkeyfiyyətli, insan sağlamlığını qoruyan beynəlxalq patentə və sertifikasiyaya malik daha geniş spektrli dərman preparatlarının ölkəmizdə də gələcəkdə istehsal və istehlakının təşkili məsələləri müzakirə olunub.

# Səhiyyə sistemlərinin rəqəmsallaşdırılması üzrə əməkdaşlıq müzakirə olunub

**Azərbaycan Səhiyyə Nazirliyində İsrail Dövlətinin daxili işlər və səhiyyə naziri Moşe Arbelin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**



Səhiyyə Nazirliyinin mətbuat xidməti bildirir ki, səhiyyə naziri Teymur Musayev Azərbaycan - İsrail əlaqələrinin xalqlarımız arasında tarixən mövcud olmuş dostluq və qarşılıqlı hörmət ənənələrinə əsaslandığını deyib, münasibətlərin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd edib: «Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə İsrail Dövlətinin Prezidenti İsxak Hersoq arasındakı dostluq əlaqələri bütün sahələrdə sıx əməkdaşlığın inkişafına və möhkəmlənməsinə əvəzsiz töhfə verir», — deyə Teymur Musayev vurğulayıb.

Nazir bildirib ki, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə İsrail Dövlətinin Səhiyyə Nazirliyi arasında imzalanan səhiyyə və tibb elmi sahələrində 2023-2028-ci illər üçün Əməkdaşlıq Planı ölkələrin səhiyyə sektorunun yeni mərhələdə inkişafı üçün mühüm platformadır. Əməkdaşlıq Planının tezliklə icraya başlayacağı qeyd edilib.

Teymur Musayev vurğulayıb ki, səhiyyədə nanotexnologiyaların tətbiqi və mütərəqqi texnoloji avadanlıqların istifadəsi Azərbaycan Səhiyyə Nazirliyinin əsas hədəflərindəndir: «İsrailin beynəlxalq müstəvidə qabaqcıl ölkə olaraq tibbi nou-hau nailiyyətlərinin, bu sahədə İKT həllərinin təcrübələrinin Azərbaycanda da smart tətbiqi səhiyyəmizin modernləşdirilməsinə müsbət təsirlərini göstərəcək».

Azərbaycanın səhiyyə naziri həmçinin 44 günlük Vətən müharibəsi zamanı yaralanan hərbçiləri müayinə və müalicə üçün Heydər Əliyev Fondu və «YAŞAT» Fondunun dəstəyi ilə mütəmadi olaraq Bakıya gələn israilli həkim briqadalarının yardımını yüksək qiymətləndirib, öz təşəkkürünü ifadə edib.

Səmimi qəbula və qonaqpərvərliyə görə minnətdarlığını bildirən İsrail Dövlətinin daxili işlər və səhiyyə naziri vurğulayıb ki, ölkələrimiz arasında dostluq əlaqələri tarixi faktdır: «İsrail ilə Azərbaycan arasında dərin mədəni-tarixi əlaqələr, dostluq və harmoniya mövcuddur. İsrail Azərbaycanın suverenliyini tanımış ilk ölkələrdən biri olub».

Moşe Arbel ölkələrimiz arasında səhiyyə və tibb elmi sahəsində də əməkdaşlığın yüksək səviyyədə olduğunu diqqətə çatdırıb: «Bundan əlavə, İsrailin Ben Qurion Universiteti və Soroka Tibb Mərkəzi Azərbaycan Tibb Universiteti ilə fəal əməkdaşlıq edir».

Sonda israilli nazir ölkələrimizin səhiyyə nazirlikləri arasında əməkdaşlığın bundan sonra da yeni müstəvidə uğurla davam etdiriləcəyinə ümidvar olduğunu bildirib.

Görüşdə tərəflər tibb kadrlarının hazırlanması prosesinin təkmilləşdirilməsi, səhiyyə sistemlərinin rəqəmsallaşdırılmasının tətbiqi üzrə əməkdaşlığın qurulması, genetika üzrə təlimlərin təşkili və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Qoşulmama Hərəkatı ölkələrinin səhiyyə nazirləri videoformatda görüşüblər

**Azərbaycan Respublikasının sədrliyi ilə Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin videokonfrans formatında növbəti görüşü keçirilib.**




Səhiyyə Nazirliyinin mətbuat xidməti məlumat verib ki, nazir Teymur Musayevin moderatorluğu ilə keçirilən videokonfrans Ümumdünya Səhiyyə Assambleyasının 76-cı sessiyası ərəfəsində Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin qlobal səhiyyə problemlərini və onların müvafiq həll yollarını müzakirə etməsi məqsədilə təşkil olunub.

Öz çıxışında Azərbaycanın səhiyyə naziri qeyd edib ki, Ümumdünya Səhiyyə Assambleyasının sessiyası ərəfəsində Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirlərinin görüşünün təşkil olunması ənənə halını alıb. «Bu, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) ictimai səhiyyədə COVID-19-la bağlı beynəlxalq fövqəladə vəziyyətin yekunlaşdığını elan etməsindən sonra Ümumdünya Səhiyyə Assambleyasının ilk sessiyası olacaq», – deyə nazir vurğulayıb.

Teymur Musayev 2020-ci ilin əvvəlində dünya ölkələrinin COVID-19 pandemiyasına məruz qaldığı dövrdə Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyə məsuliyyətlə yanaşmasını diqqətə çatdırıb. O, Azərbaycanın pandemiya ilə mübarizədə qlobal səylərin səfərbər edilməsi üçün bir sıra təşəbbüslər irəli sürdüyünü deyib: «Azərbaycan 2020-ci ilin may ayında Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində onlayn Zirvə toplantısının keçirilməsi təşəbbüsünü irəli sürdü. Zirvə toplantısında məlumat bazası hazırlamaq üçün Qoşulmama Hərəkatının İşçi Qrupunun yaradılması qərara alındı. ÜST pandemiya ilə mübarizədə Qoşulmama Hərəkatına üzv dövlətlərin ehtiyaclarını müəyyən etmək üçün bu məlumat bazasına istinad edib.

Prezident İlham Əliyevin təklifinə əsasən, 2020-ci ilin dekabr ayında BMT Baş Assambleyasının koronavirusla mübarizəyə həsr edilmiş, dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası təşkil olundu. Həmçinin COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun növbəti Zirvə görüşü bu il martın 2-də Azərbaycanın paytaxtında əyani iştirakla uğurla keçirildi».

Öz çıxışlarında Qoşulmama Hərəkatına üzv ölkələrin səhiyyə nazirləri qeyd ediblər ki, Azərbaycanın sədrliyi dövründə təşkilatın beynəlxalq arenada rolu və nüfuzu əsaslı şəkildə artıb, bu mühüm platforma çərçivəsində ölkələr arasında çoxtərəfli əməkdaşlıq yeni səviyyəyə çatdırılıb. Onlar həmçinin qlobal pandemiya böhranından sonrakı dövrdə infrastrukturun və xidmətlərin təkmilləşdirilməsinin vacibliyini vurğulayıblar.

# Misirlə əczaçılıq sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilib

**Səhiyyə Nazirliyində Misir Ərəb Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Hişam Mohamed Nağı ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, səhiyyə naziri Teymur Musayev ölkələrimizin bir çox sahələrdə uğurla əməkdaşlıq etdiyini diqqətə çatdırıb, münasibətlərin genişlənməsində yüksək səviyyəli qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb.

Teymur Musayev Azərbaycanla Misir arasında səhiyyə sahəsində mövcud əməkdaşlıq əlaqələrinin inkişafı üçün geniş potensialın olduğunu bildirib: «Səhiyyə siyasəti və ictimai səhiyyə sahəsində ölkələrimiz arasında əməkdaşlıq səhiyyə qurumlarının beynəlxalq müstəvidə — Ümumdünya Səhiyyə Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində aparılır. Eyni zamanda, tibb mütəxəssislərinin davamlı peşə təhsili sahəsində müasir metodiki və elmi-praktik təcrübə mübadiləsi üçün bütün imkanlar var».

Nazir əməkdaşlığın gələcəkdə uğurla inkişaf etdiriləcəyinə əminliyini ifadə edib.

Öz növbəsində Hişam Mohamed Nağı Misirin Azərbaycanla əlaqələrin inkişafına xüsusi əhəmiyyət verdiyini bildirərək deyib: «Ölkələrimiz arasında 1992-ci ildən etibarən diplomatik əlaqələr qurulub və ötən müddət ərzində Misir və Azərbaycan dövlətləri arasında əməkdaşlıq müsbət dinamika ilə inkişaf edir».

Misirdə əczaçılıq sənayesinin inkişafına xüsusi diqqət yetirildiyini qeyd edən səfir ölkəsinin bu sahədə Azərbaycanla mövcud olan əməkdaşlıq əlaqələrinin daha da gücləndirilməsində maraqlı olduğunu bildirib.

Görüşdə səhiyyə və tibb elmi sahəsində əməkdaşlığın inkişafının yeni perspektivləri, eyni zamanda, gələcəkdə əczaçılıq sahəsində əməkdaşlıq memorandumunun imzalanmasına dair müzakirələr aparılıb.

# Azərbaycanla Litva səhiyyə sahəsində əməkdaşlığı genişləndirir

**Azərbaycan Respublikasının Səhiyyə Nazirliyində Litva Respublikasının Səhiyyə Nazirliyi yanında Dövlət Tibbi Sığorta Fondunun baş direktoru Gintaras Katsaviçusun başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, görüşdə səhiyyə naziri Teymur Musayev ölkələrimiz arasında bir çox sahələrdə, o cümlədən səhiyyə və tibb elmi sahəsində mövcud olan uğurlu əməkdaşlığı diqqətə çatdırıb. Qeyd edib ki, həmrəylik prinsipinə əsaslanan, əhalinin sağlamlığının qorunmasına yönəldilmiş sosial layihə olan icbari tibbi sığorta 2021-ci ildən etibarən Azərbaycanda tam tətbiq olunur.

Teymur Musayev Səhiyyə Nazirliyinin bu prosesə dəstək olduğunu qeyd edib. Diqqətə çatdırıb ki, icbari tibbi sığortanın tətbiqi planı səhiyyə modullarının tədricən fayda paketinə daxil edilməsini nəzərdə tutur. Bildirilib ki, bütün islahatların əsasında səhiyyə sisteminin rəqəmsallaşdırılması dayanıb və icbari tibbi sığortanın tətbiqi bu sistemin bir hissəsidir. Bununla yanaşı, qabaqcıl tibbi texnologiyaların səhiyyə sisteminə gətirilməsi və tibbi xidmətlərə vətəndaşın əlçatanlığının, habelə bu sahədə sosialyönümlülüyün təmin edilməsi önəmli məsələlərdir. Bu istiqamətlərdə ölkədə lazımi addımlar atılır.

Səmimi qarşılanmaya görə minnətdarlığını bildirən Litva Respublikasının Səhiyyə Nazirliyi yanında Dövlət Tibbi Sığorta Fondunun baş direktoru ölkəmizin səhiyyə sistemində aparılan islahatların dəstəklədiyini vurğulayıb. Gintaras Katsaviçus həmçinin Litvanın sığorta sisteminin tətbiqi ilə bağlı əldə edilən təcrübəni Azərbaycanla bölüşməyə hazır olduqlarını qeyd edib.

Görüşün sonunda tərəflər əməkdaşlığı inkişaf etdirmək barədə razılığa gəliblər.

## Tibbi tullantıların idarə edilməsi sahəsində fəaliyyət əlaqələndiriləcək

**Tibbi tullantıların effektiv idarəçiliyi və bu sahədə koordinasiyalı fəaliyyətin təmin edilməsi məqsədilə Səhiyyə Nazirliyində Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə tədbir keçirilib.**



Səhiyyə Nazirliyinin mətbuat xidmətindən bildirildiyinə görə, tədbirdə səhiyyə naziri Teymur Musayev Prezident İlham Əliyevin rəhbərliyi altında səhiyyə sisteminin inkişafı ilə bağlı davamlı islahatların və mütərəqqi idarəetmə mexanizmlərinin tətbiq edildiyini vurğulayıb.

«Tibb müəssisələrində yeni kliniki tədqiqat metodlarının aktiv tətbiqi, əhalinin sağlamlığı, ölkədə formalaşan tibbi tullantıların idarə edilməsi və sanitariya-epidemioloji vəziyyətin ətraflı təhlili Səhiyyə Nazirliyinin prioritet məsələlərindəndir», — deyə Teymur Musayev qeyd edib.

Nazir tibb müəssisələrində personalın tibbi tullantıların idarə edilməsi üzrə qanunvericilikdə nəzərdə tutulmuş qaydada bilik və bacarıqlarının artırılması üçün birgə təlimlərin təşkilinin zəruriliyini bildirib. O cümlədən işğaldan azad edilən ərazilərdə görüləcək yenidənqurma işlərində tibbi tullantıların keyfiyyətli idarə olunması sisteminin təşkilinin vacibliyini vurğulayıb.

Ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyev ətraf mühitin mühafizəsi və əhalinin sağlamlığı məsələlərinə daim diqqət yetirir. Nazirlik tərəfindən tibbi tullantıların uçotunun aparılmasının təkmilləşdirilməsi istiqamətində zəruri işlər görülür. Son dövrlər tibbi tullantıların çeşidlənməsi sağlam ekoloji mühitin formalaşmasında müsbət tendensiya kimi müşahidə edilir.

Tədbirdə birdəfəlik tibbi alət və ləvazimatlardan geniş istifadə edilməsi, tibbi tullantıların insan sağlamlığı və ətraf mühit üçün təhlükəsiz idarə olunması mövzularında təqdimatlar edilib.

Sonra «Tibbi tullantıların idarə edilməsi sahəsində mövcud problemlərin effektiv həlli üçün koordinasiyalı fəaliyyətin təmin edilməsi barədə» birgə əmr imzalanıb.

Əmrə əsasən, tərkibində əhalinin sağlamlığı, ekoloji və sanitariya vəziyyəti üçün təhlükə yaradan infeksion və digər materiallar olan tibbi tullantıların idarə edilməsi sahəsində mövcud vəziyyətin təhlili və bu sahədə səmərəli idarəetmənin təşkili məqsədilə birgə İşçi Qrup yaradılıb.

Sənəddə ölkədə tibbi tullantıların idarə olunması sahəsində mövcud vəziyyət, qanunvericiliyin təhlili, tibb müəssisələrində tibbi tullantıların idarə olunması, tibbi tullantıların zərərsizləşdirilməsi sahəsində beynəlxalq təcrübənin tətbiqi, ictimaiyyətin maarifləndirilməsi işləri əks olunub.

Eyni zamanda, tibbi tullantıların idarə olunmasının təkmilləşdirilməsinə dair Yol Xəritəsi layihəsinin hazırlanması istiqamətində müvafiq tədbirlərin yekunlaşdırılması nəzərdə tutulub.

## İsrailin «BioPharmax» şirkəti Azərbaycan Səhiyyə Nazirliyi ilə əməkdaşlıqda maraqlıdır



**Azərbaycan Səhiyyə Nazirliyində İsrailin tibb məhsullarının istehsalı üzrə aparıcı şirkətlərindən biri olan «BioPharmax» şirkətinin rəhbər heyəti ilə görüş keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, görüş zamanı **səhiyyə naziri Teymur Musayev** səhiyyə və tibb elmi sahəsində Azərbaycan - İsrail əməkdaşlığının səmərəli olduğunu vurğulayıb. Nazir qeyd edib ki, ölkələrimiz virusologiya, mikrobiologiya və səhiyyənin digər yüksək texnologiyalı sahələrində uğurla əməkdaşlıq edir.

Ölkələrimiz arasında əczaçılıq sahəsində də əlaqələrin uğurla inkişaf etdiyini vurğulayan Teymur Musayev İsraildə əczaçılıqda güclü sənaye potensialının mövcudluğunu, elmi-tədqiqat bazasının inkişaf etdirildiyini, dərman vasitələrinin istehsalı sahəsində innovasiyaların geniş tətbiq olunduğunu diqqətə çatdırıb.

Azərbaycanın səhiyyə naziri əməkdaşlığın bundan sonra daha da inkişaf edəcəyinə əminliyini ifadə edib.

Səmimi qarşılanmaya görə minnətdarlığını bildirən **«BioPharmax» şirkətinin vitse-prezidenti Yossi Tzabari** təmsil etdiyi şirkətin səhiyyənin rəqəmsal transformasiyası və digər sahələrdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb.

Görüş zamanı ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub. Həmçinin "BioPharmax" şirkətinin istehsal etdiyi yüksək texnoloji avadanlıqlarının Azərbaycan səhiyyəsində tətbiqi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## İsrail tibbi təhsil, səhiyyənin rəqəmsal transformasiyası, telesəhiyyə sahələrində Azərbaycanla əməkdaşlıqda maraqlıdır

**İsrailin nüfuzlu ali təhsil ocaqlarından biri olan Holon Texnologiya İnstitutunun (HIT) nümayəndə heyətinin Azərbaycana işgüzar səfəri çərçivəsində Səhiyyə Nazirliyində görüş keçirilib.**

Nazirliyin mətbuat xidməti bildirir ki, görüşdə səhiyyə naziri Teymur Musayev səhiyyə və tibb elmi sahəsində Azərbaycan - İsrail əməkdaşlığının nümunəvi olduğunu vurğulayıb. Qeyd edib ki, ölkələrimiz virusologiya, mikrobiologiya və səhiyyənin digər yüksək texnologiyalı sahələrində uğurla əməkdaşlıq edir: «Bundan başqa, iki ölkənin səhiyyə nazirlikləri arasında səmərəli ikitərəfli əməkdaşlıq əlaqələri qurulub».

Teymur Musayev səhiyyə sisteminin rəqəmsallaşdırılmasını Azərbaycan Səhiyyə Nazirliyinin qarşısına qoyulan prioritet məsələlərdən biri olduğunu vurğulayıb: «Süni intellekt və rəqəmsallaşmanı mənimsəyən həkimlərin yetişdirilməsi Səhiyyə Nazirliyinin qarşısında duran əsas hədəflərdən biridir. Rəqəmsal səhiyyə dünyada səhiyyə sistemlərində bir çox problemlərin həlli üçün böyük potensiala malikdir. Təcrübə göstərir ki, rəqəmsal texnologiyalar səhiyyənin keyfiyyətini əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər. İsrail səhiyyənin rəqəmsallaşdırılması sahəsində beynəlxalq müstəvidə qabaqcıl ölkələrdən biridir. Bunu nəzərə alaraq, İsrailin, xüsusən də Holon Texnologiya İnstitutunun bu sahədə təcrübəsi əvəzsizdir. Hesab edirəm ki, HIT ilə əməkdaşlıq çərçivəsində tibb təhsili alan azərbaycanlı tələbələrin data elmləri, süni intellekt və rəqəmsallaşmanı dərindən mənimsəməsinə nail olmaq mümkündür», — deyə nazir əlavə edib.

Səmimi qəbula görə minnətdarlığını bildirən HIT-in prezidenti Eduard Yakubov Holon Texnologiya İnstitutunun tibbi təhsil, səhiyyənin rəqəmsal transformasiyası, telesəhiyyə və digər sahələrdə Azərbaycan Səhiyyə Nazirliyi ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb. Bildirilib ki, bir neçə il öncə bu institut rəqəmsal səhiyyə sahəsində mütəxəssislərin hazırlanması üçün dünyada unikal və ilk proqramın icrasına başlayıb.

Görüşün sonunda tərəflər əməkdaşlığı inkişaf etdirmək barədə razılığa gəliblər.

# «Təbabətin aktual problemləri - 2023»

*(Əvvəli səhifə 5-də)*

Mehriban xanımın ölkə səhiyyəsinə himayədarlığı, insanların sağlamlığına diqqət və qayğısı, birbaşa təşəbbüskarı olduğu layihələr xalqımız tərəfindən yüksək qiymətləndirilir. Bu isə o deməkdir ki, dahi Heydər Əliyevin irsi bu gün də yaşayır, Azərbaycanın səhiyyə sisteminin yeni nailiyyətlərinin istiqamətvericisinə çevrilir. Onun əziz xatirəsi daim yollarımıza işıq saçır, bizi yeni uğurların təntənəsinə aparır», — deyə T.Musayev çıxışına yekun vurub.

**Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyli** bütün həyatını doğma xalqına həsr edən, Vətənə, millətə sədaqətlə, ləyaqətlə xidmət göstərən Ulu Öndərin adının bəşər tarixinə qızıl hərflərlə yazıldığını deyib. Qeyd edib ki, istər sovetlər dövründə, istərsə də müstəqillik bərpa edildikdən sonrakı müddətdə Azərbaycan üçün ən həlledici anlarda məhz Ulu Öndərin liderlik keyfiyyətləri, müdrikliyi, cəsarətli addımları xalqımızı böyük bəlalardan xilas edib. Bildirib ki, Ulu Öndər xalqımızın sağlamlığının keşiyində duran həkimlərin cəmiyyətdə rolunu daim vurğulayıb: «Heydər Əliyev tibb təhsili, tibb elmi və səhiyyənin inkişafının bir-birindən ayrılmaz olduğunu, hamısının bir məqsədə — sağlam gələcək nəslin yetişməsinə xidmət etdiyini xüsusilə qeyd edirdi. Ulu Öndərin Azərbaycana rəhbərliyi illərində respublikada həkim kadrların və təbabət alimlərinin hazırlığına böyük diqqət yetirildi, mövcud səhiyyə ocaqları abadlaşdırıldı, yeni tibb müəssisələri və elmi mərkəzlər açıldı, elmi-tədqiqat institutlarının fəaliyyəti canlandırıldı. Heydər Əliyev Azərbaycanda ilk ali tibb təhsili ocağı olan Azərbaycan Tibb Universitetinə də hər zaman diqqət və qayğı ilə yanaşıb. Fərəhli haldır ki, Ulu Öndər 1998 və 2000-ci illərdə Azərbaycan Tibb Universitetində olub. O hər gəlişində geniş nitq söyləyərək həm tələbə, həm professor-müəllim heyətinə, həm də bütövlükdə bütün səhiyyə işçilərinə dəyərli tövsiyələr verirdi. 2002-ci ildə isə Heydər Əliyevin göstərişi ilə Azərbaycan Tibb Universitetinin ilk olan Stomatoloji Klinikasının yaradılması haqqında Qərar qəbul olundu. Məhz Ümummilli Liderin göstərişi ilə universitetin nəzdində Hərbi tibb fakültəsi yaradıldı. Həmin fakültənin məzunları 44 günlük Vətən müharibəsində əvəzolunmaz xidmətləri ilə fərqləndilər».

Konqresdə həmçinin Türkiyənin İnönü Universitetinin Qaraciyər Transplantasiyası İnstitutunun direktoru, professor Sezai Yılmaz, Beynəlxalq Tibb Təhsili Konfransının prezidenti, professor Ajar Rəşid, Rusiya Terapevtlərinin Elmi Tibbi Cəmiyyətinin prezidenti, akademik Anatoli Martınov, Stenford Universitetinin Lusile Pakkard Uşaq xəstəxanasının təmsilçisi dosent Teymur Nəsirov və digərləri çıxış ediblər. Natiqlər qeyd ediblər ki, ölkənin səhiyyə sisteminin müasir və beynəlxalq çağırışlar fonunda inkişaf etdirilməsi Ümummilli Lider Heydər Əliyev siyasətinin əsas istiqamətlərindən olub.

Daha sonra Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilən sənədli film nümayiş olunub.

Türkiyə, Pakistan, Rusiya, ABŞ və digər ölkələrdən qonaqların iştirak etdiyi «Təbabətin aktual problemləri - 2023» mövzusunda beynəlxalq elmi-praktik konqres öz işini plenar sessiyalarla davam etdirib.

# «Bakı Ürək Günləri» 8-ci Beynəlxalq Konqresi keçirilib

**Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin (AÜDCC) təşkilatçılığı ilə Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş «Bakı Ürək Günləri» 8-ci Beynəlxalq Konqresi keçirilib.**

AZƏRTAC xəbər verir ki, konqresin açılış mərasimində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, onun həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

**Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyeva** Prezident İlham Əliyevin tədbir iştirakçılarına ünvanladığı məktubunu oxuyub.

Milli Məclisin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov konfransın Azərbaycan səhiyyəsi və tibb elmi üçün vacibliyini vurğulayıb, ürək-damar xəstəlikləri kimi problemlərin ölkəmizdə aktuallığını, Prezident İlham Əliyevin konqreslə bağlı məktubunun bu sahənin vacibliyinin ən bariz nümunəsi olduğunu qeyd edib. Heydər Əliyevin peşəkar tibbi kadrların yetişdirilməsində rolundan danışan Əhliman Əmiraslanov deyib: «Ulu Öndər ilk dəfə hakimiyyətə gəldiyi gündən tibbi kadr hazırlığına böyük önəm verib. Mən də həmin şanslı gənclərdən olmuşam. Bu gün bir çox xəstəxanaların rəhbərliyində, tibb universitetinin qocaman müəllimləri arasında məhz Heydər Əliyev sayəsində xaricdə təhsil alan həkimlər var».

**İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin İdarə Heyətinin sədri Zaur Əliyev** tibb elminin sürətlə inkişaf etdiyi dövrdə beynəlxalq təcrübənin öyrənilməsinin və bu sahədə yeniliklərin müzakirəsinin vacibliyini vurğulayıb.



**Səhiyyə nazirinin müavini Rasim İsmayılov** Ulu Öndər Heydər Əliyevin keçdiyi böyük, mənalı və şərəfli həyat yoluna nəzər salaraq bildirib ki, Azərbaycan dövlətçiliyinin, ordusunun, mədəniyyətinin, səhiyyə və təhsil sistemlərinin inkişafında Ümummilli Liderin rolu əvəzolunmazdır. Nazir müavini qeyd edib ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti bu gün sürətli inkişaf dövrünü yaşayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət sayəsində Azərbaycan bölgənin aparıcı dövlətinə çevrilib. Bu gün Ulu Öndər Heydər Əliyevin siyasi kursunun ölkəmizdə sədaqətlə davam etdirilməsi digər sahələr kimi, səhiyyə sistemində də uğurlara yeni vüsət verib. Heydər Əliyevin uzun illərə hesablanmış strategiyasının uğurla tətbiqi nəticəsində səhiyyə sistemini qarşıda daha böyük tərəqqi, nailiyyətlər gözləyir.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin icraçı direktoru **Vüqar Qurbanov** konqresin azərbaycanlı həkimlərə dünyanın qabaqcıl mütəxəssisləri ilə kardioloji elmlərdəki ən son nailiyyətləri müzakirə etmək imkanı yaratdığını deyib.

«Bakı Ürək Günləri» Beynəlxalq Konqresinin fəxri qonağı, vaxtilə Klivlend klinikasında Ulu Öndərin həkimi olmuş məşhur kardioloq **professor Murat Tuzcu** Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb.

AÜDCC-nin sədri **professor Kamran Musayev** konqresin keçirilməsində əsas məqsədin Azərbaycanda kardiologiyanın və ürək-damar cərrahiyyəsinin inkişafına töhfə vermək, əcnəbi mütəxəssislərlə birgə fikir mübadiləsi aparmaq və tibb elminin bu sahədəki son yenilikləri müzakirə etmək olduğunu deyib.

400-ə yaxın yerli və əcnəbi kardioloq və kardiocərrahın iştirak etdiyi konqres elmi hissə ilə davam edib. Yerli və xarici mütəxəssislər təbabətin müxtəlif problemlərini əhatə edən təqdimatlarla çıxış edib, ürək-damar xəstəlikləri, onların müalicəsindəki ən aktual məsələlər ətrafında müzakirələr aparıblar.

«Bakı Ürək Günləri» 8-ci Beynəlxalq Konqresi çərçivəsində «Türk Dünyasında ürək-damar cərrahiyyəsinin gələcəyi» adlı dəyirmi masa keçirilib. Azərbaycan, Türkiyə, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstandan olan ürək-damar cərrahiyyəsi üzrə aparıcı mütəxəssislərin iştirak etdiyi toplantıda türk dünyası ölkələri arasında bütün sahələr üzrə inkişaf edən əlaqələrdən söz açılıb, tibb üzrə əlaqələrin, xüsusilə ürək-damar cərrahiyyəsi üzrə təcrübə mübadiləsinin artırılmasının vacibliyi vurğulanıb, gələcək əməkdaşlıq məsələləri müzakirə edilib. Bu məqsədlə Türk dünyası ölkələrinin ürək-damar cərrahlarının birliyinin yaradılması təklif olunub.

Təşkilati işlərin həyata keçirilməsi məqsədilə iştirakçı ölkələrin hər birindən bir təmsilçi olmaqla işçi qrup formalaşdırılıb, Türkiyə təmsilçisi professor Mehmet Ali Özatik işçi qrupun rəhbəri seçilib.

Toplantı iştirakçıları Türk dünyası ürək-damar cərrahlarının birliyinin yaradılmasının ölkələrimiz arasında inkişaf edən əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyindən əminliklərini ifadə ediblər.

2009-cu ildən etibarən hər iki ildən bir keçirilən «Bakı Ürək Günləri» Beynəlxalq Konqresi çərçivəsində gənc ürək-damar cərrahları üçün mitral qapaq təmiri və cərrahi anastomoz kursu, tibb bacıları və perfuzionistlər üçün öyrədici kurslar təşkil edilib.

«Bakı Ürək Günləri» 8-ci Beynəlxalq Konqresi Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən Davamlı Tibbi Təhsil tədbiri kimi tanınaraq akkreditasiyadan keçib və ona 30 kredit balı verilib.

# Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş konfrans keçirilib

**Səhiyyə Nazirliyi, K.Fərəcova adına Elmi Tədqiqat Pediatriya İnstitutu (ETPİ), İctimai Səhiyyə və İslahatlar Mərkəzi, «Ümidli Gələcək» Sosial Təşəbbüslər İctimai Birliyinin birgə təşkilatçılığı, «Uptodate in Medicine» qurumunun texniki dəstəyi ilə Uşaqların Beynəlxalq Müdafiəsi Gününə həsr olunmuş konfrans keçirilib.**



ETPİ-dən verilən məlumata görə, Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan toplantıda ilk olaraq İnstitutun direktoru Lətif Zeyniyev tədbir iştirakçılarını salamlayıb. O, pediatrlar üçün nəzərdə tutulan konfransın əhəmiyyətini, onun uşaq sağlamlığının qorunmasına verəcəyi tohfələri vurğulayıb.

Tədbirin açılışında Səhiyyə Nazirliyinin Qadın, ana, uşaq və yeniyetmələrin sağlamlığının qorunması sektorunun müdiri Aynurə Zeynalova, İctimai Səhiyyə və İslahatlar Mərkəzinin (İSİM) direktoru Qəhrəman Haqverdiyev, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təmsilçisi Seymur Məmmədov, Ədliyyə Nazirliyinin İnsan hüquqları, informasiya və kommunikasiya şöbəsinin əməkdaşı Aynur Sabitova, UNICEF-in Azərbaycan ofisinin nümayəndəsi Vüqar Salmanov, Ombudsman aparatının nümayəndəsi Nigar Ağayeva çıxış edib, uşaqların müdafiəsinin müxtəlif aspektlərindən danışıblar.

Konfransın dosent Nailə Rəhimova və dosent Aynur Poluxovanın moderatorluğu ilə keçirilən birinci hissəsində ETPİ-nin direktoru Lətif Zeyniyev «Uşaqlara qarşı fiziki zorakılığın diaqnostikasında vacib məqamlar», İnstitutun böyük elmi işçisi dosent Adilə Hacıyeva «Uşaqların beynəlxalq müdafiəsi: uşaqları necə qoruyaq?», Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun dosenti Nigar Hacıyeva «Atanın uşaq sağlamlığında rolu», psixoloq Gülşən Axundova «Tibb müəssisələrində zorakılıq və təcavüz hallarının aşkarlanması», Azərbaycan Pediatrlar Assosiasiyasının sədri dosent Təranə Tağızadə «Azərbaycan Pediatriya Assosiasiyasının uşaq hüquqlarının müdafiəsində rolu» mövzularında çıxış ediblər.

Tədbirin dosent Sevinc Nəsirovanın və Yeganə Qasımovanın sədrliyi ilə keçən ikinci hissəsində ETPİ-nin elmi işlər üzrə direktor müavini dosent Nailə Rəhimovanın «Vaxtından əvvəl doğulan uşaqlar: tibbi-sosial problem», İSİM-in şöbə müdiri Şəhla İsmayılovanın «Uşaqların müdafiəsində sübuta əsaslanan resurslar», Azərbaycan Uşaq Qaynar Xətt xidmətinin koordinatoru Günel Süleymanlının «Uşaq hüquqlarının müdafiəsində qaynar xəttlərin rolu», İSİM-in əməkdaşı Könül İsmayılovanın «Uşaq və yeniyetmələrdə psixi sağlamlıq problemləri» mövzularında çıxışları dinlənilib.

Sonda uşaqların müdafiəsi, sağlamlıqlarının qorunması, mənəvi, əxlaqi və sosial inkişafı mövzuları ətrafında maraqlı müzakirələr aparılıb.

Səhiyyə Nazirliyinin «Davamlı Tibbi Təhsil üzrə elm və tədris tədbirlərinin akkreditasiya qaydaları» əsasında akkreditasiya olunmuş konfransın sonunda iştirakçılara sertifikatlar təqdim edilib.

# AEM 50-yə yaxın özəl tibb müəssisəsində nöqsanlar aşkarlayıb

Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzi (AEM) tərəfindən özəl tibb müəssisələrində planlaşdırılmış və plandankənar yoxlamalar keçirilir. AEM-dən verilən məlumata görə, bu ilin birinci rübü ərzində plan üzrə yoxlamalar siyahısında olan 77 özəl tibb müəssisəsindən 49-da planlı yoxlamalar aparılıb. Bunun nəticəsində 38 müəssisədə nöqsanlar aşkarlanıb, 11 müəssisədə isə heç bir nöqsan müəyyən edilməyib. Qalan 28 özəl müəssisədə reyestrdən imtina, ünvan dəyişmə, təmir və ya lisenziyanın ləğvi səbəbindən yoxlamaların aparılması mümkün olmayıb.

Plandankənar yoxlamalar nəzərdə tutulan 33 müəssisənin 28-də yoxlamalar aparılıb. Nəticədə, 8 müəssisədə nöqsanlar aşkarlanıb.

Aparılan monitorinqlərin nəticəsində İnzibati Xətalar Məcəlləsinin (İXM) 210.1, 215.1 və 215.4 maddələrinə əsasən 52 protokol tərtib edilib və icraata göndərilib.

Bundan əlavə, 67 özəl tibb müəssisəsinin fəaliyyət ünvanlarında yaradılan şəraitin normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilib, onlardan lisenziya almaq üçün edilən 55 müraciətə müsbət rəy verilib.

AEM qanunvericiliyə uyğun olaraq əczaçılıq müəssisələrində də nəzarət yoxlamaları aparır. Belə ki, 2023-cü il aprelin 1-dən aprelin 30-dək Bakı şəhəri üzrə 30, regionlar üzrə 21 aptek olmaqla, ümumilikdə 51 aptekdə yoxlamalar həyata keçirilib. Nəticədə, əczaçılıq müəssisələrində 15 protokol tərtib edilib.







## AŞAĞIDAKI TİBB MÜƏSSİSƏLƏRİ GÖSTƏRİLƏN VAKANT YERLƏRƏ MÜSABİQƏ ELAN EDİR

**«Respublika Narkoloji Mərkəzi» PHŞ**

Sosioloq - 2.0
Tibb bacısı (qardaşı) - 4.0

*Ünvan: Maştağa qəs., Ş.Hüseyn küç.,71*
*Telefon: 558-75-16*

**«Respublika GEM» PHŞ**

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: A.Manaf küç., 22*
*Telefon: 421-63-41*

**Qaradağ Rayon GEM**

Tibbi-statistik - 1.0

*Ünvan: Nərimanov küç., 20*
*Telefon: 445-02-87*

**Xaçmaz Rayon GEM**

Feldşer-laborant - 1.0

*Ünvan: N.Nərimanov küç., 7*
*Telefon: (02332) 5-12-80*

**Nəsimi Rayon GEM**

Həkim-epidemioloqun köməkçisi - 1.0

*Ünvan: K.Səfərəliyyeva küç., 43d*
*Telefon: 488-30-15*

**Respublika Leproz (Cüzam) Xəstəxanası**

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Umbakı qəsəbəsi*
*Telefon: 446-80-39*

**«Respublika Psixiatriya Xəstəxanası» PHŞ**

Tibb bacısı (qardaşı) - 10.0
Psixoloq - 2.0
Sosioloq - 2.0

*Ünvan: Maştağa qəs., Ş.Hüseyn küç., 69/71*
*Telefon: 455-10-91*

**Zaqatala Rayon GEM**

Tibbi-statistik - 1.0

*Ünvan: Bülbül küç., 13*
*Telefon: (02422) 5-25-11*

**«Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutu» PHŞ**

*Gigiyena şöbəsinin Əmək sağlamlığı bölməsi:*
Bölmə müdiri -1.0
Elmi işçi - 1.0

*Ünvan: C.Cabbarlı küç., 35*
*Telefon: 594-69-31*

**Mingəçevir Şəhər Psixonevroloji Dispanseri**

Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: 20 Yanvar küç., 228, köhnə tibb şəhərciyi.*
*Telefon: (02127) 5-78-75*

**Lənkəran Şəhər Psixiatriya Xəstəxanası**

Tibb bacısı (qardaşı) - 1.0
Psixoloq - 1.0
Provizor - 1.0
Əczaçı - 1.0

*Ünvan: Nəsimi küç., 92*
*Telefon: (02525) 4-44-79*

**Ağdam Ruhi Əsəb Xəstəlikləri Dispanseri**

Psixoloq - 1.0
Rentgen-texnik - 1.0
Pəhriz üzrə tibb bacısı (qardaşı) - 1.0
Tibb bacısı (qardaşı) - 1.0

*Ünvan: Quzanlı qəsəbəsi*
*Telefon: (02632) 5-00-41*

**Hacıqabul Rayon GEM**

Tibbi-statistik - 1.0
Entomoloqun köməkçisi-1.0
Təlimatçı-dezinfektor - 3.0
Feldşer-laborant - 1.0
Sanitar-feldşer - 3.0
Həkim-epidemioloqun köməkçisi - 1.0

*Ünvan: Hərbi şəhərcik küç., 1*
*Telefon: (02120) 4-11-68*

**6 nömrəli Uşaq Somatik Sanatoriyası**

Tibb bacısı (qardaşı) - 1.0
Müalicəvi bədən tərbiyəsi üzrə təlimatçı - 1.0

*Ünvan: S.Orucov küç.*
*Telefon: 445-24-74*

## Abunə kampaniyası davam edir!

**2023-cü ilin II yarısı üçün abunə kampaniyası iyul ayının 31-dək davam edəcək. Bir nüsxənin 6 aylıq abunə haqqı 7 manat 50 qəpikdir. Abunə haqqı ya redaksiyada ödənməli, ya da qəzetin aşağıdakı bank hesabına köçürülməlidir:**

«Tibb qəzeti» VÖEN 1400410961 İBAN AZ43İBAZ 38090019449323220204
h/h38090019449323220204 Bank: Beynəlxalq SKB-nin Mərkəzi filialı
Kod: 805722 AZ03NABZ 01350100000000002944 BANK (VÖEN)9900001881
S W İ F T İBAZAZ 2 X

Baş redaktor:
N.MƏCİDOVA

Baş redaktorun müavini:
S.NƏBİYEVA

Qəzet 1991-ci il yanvarın 5-dən nəşr olunur.

Təsisçi:
Azərbaycan Respublikası Səhiyyə Nazirliyi

*Müəlliflərin fikirləri qəzetin mövqeyi ilə üst-üstə düşməyə bilər. Redaksiyaya gələn yazılar geri qaytarılmır, onlara rəy verilmir.*

Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır.
Qeydiyyat nömrəsi: B92

Ünvan: Mirəsədulla Mirqasımov küç., 1. Səhiyyə Nazirliyi, 2-ci mərtəbə, 249-cu otaq

Tel./faks: (012) 596-06-61
E-mail: tibbqazeti@mail.ru

Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnmiş və «CBS polygraphic production» mətbəəsində çap olunmuşdur.

İndeks: 1065 Tiraj: 9400